

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

12 avqust 2025-ci il, çərşənbə axşamı
№ 140 (6967)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.


# Azərbaycanın sülh gündəliyinin təsdiqi



## Müharibədə qələbə, diplomatiyada qələbə!

Bax səh. 2

## Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında SAZİŞ

Bax səh. 3



## Zəngəzur: Tək yol deyil, yeni dövrün başlanğıcıdır

Bax səh. 3

## Cənubi Qafqaz böyük dəyişikliklər ərəfəsində...

Bax səh. 4

### Əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi

Bax səh. 4

### Dünya liderləri alqışlayırlar

Bax səh. 5

### Kremldə yazılan ssenari...
Rusiyaya baha başa gələ bilər

Bax səh. 6

### “Gender bərabərliyi”, yoxsa “gender münasibətləri”?

Bax səh. 6



### Makrondan Fransanın yumşaq güc siyasətinə BÖYÜK ZƏRBƏ

Bax səh. 7



### Alyaska sülhün qapısı olacaqmı?

Bax səh. 7

# Azərbaycanın sülh gündəliyinin təsdiqi

## Müharibədə qələbə, diplomatiyada qələbə!

Avqustun 8-dən 9-na keçən gecədə okeanın o tayında - Vaşinqtonda, Ağ Evdə möhtəşəm bir tarix yazıldı. Elə bir tarix ki, bu günümüz və gələcəyimiz üçün müstəsna önəm daşıyır. Dünyanın bir nömrəli ofisində aparılan müzakirələr, imzalanan sənədlər, Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Tramp tərəfindən dövlətimizin başçısına göstərilən xüsusi ehtiram Azərbaycan diplomatiyasının növbəti uğurudur. Baş verənlər Azərbaycan həqiqətlərini dünyaya nümayiş etdirməklə ölkəmizin Prezident İlham Əliyevin rəhbərliyi ilə necə düzgün, uğurlu yol keçdiyini, üzləşdiyi çərtinliklərə, haqsızlıqlara, ikili standartlara baxmayaraq, özünü təsdiqlədiyini, ümummilli hədəflərinə, sülh istəyinə doğru inamlı addımlar atdığını əyani şəkildə təsdiqlədi.



# Azərbaycandan Ukraynaya 2 milyon dollarlıq yardım



## Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasının Energetika Nazirliyinə vəsait ayrılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası humanizm prinsiplərinə söykənərək, ikitərəfli və çoxtərəfli əsasda dünyanın bir çox ölkəsinə humanitar yardım göstərir.

Son illərdə Ukraynada yaranmış vəziyyətlə əlaqədar Azərbaycan dövləti tərəfindən Ukrayna xalqına da bir neçə dəfə humanitar yardım göndərilmişdir.

Azərbaycan Respublikası ilə Ukrayna arasında münasibətlər dostluq və tərəfdaşlıq zəminində müvafiq ikitərəfli sənədlər, o cümlədən 2000-ci il 16 mart tarixli "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında Müqavilə", 2008-ci il 22 may tarixli "Azərbaycan Respublikası və Ukrayna arasında dostluq və strateji tərəfdaşlıq haqqında Bəyannamə" və 2022-ci il 14 yanvar tarixli "Azərbaycan Respublikası Prezidentinin və Ukrayna Prezidentinin Birgə Bəyannaməsi" əsasında inkişaf edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Ukraynaya humanitar yardım göstərilməsi məqsədilə Azərbaycan Respublikasında istehsal olunan elektrik avadanlığının satın alınması və göndərilməsi üçün Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Energetika Nazirliyinə 2,0 (iki) milyon ABŞ dollarının manat ekvivalentində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 11 avqust 2025-ci il**



# Azərbaycan - ABŞ münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlir

Dünyanın bir nömrəli gücü sayılan ABŞ-la strateji tərəfdaşlığa nail olmaq istənilən ölkənin marağındadır. Ancaq heç də bütün ölkələr bu istəklərinə nail ola bilmirlər. Respulikamıza gəldikdə isə mənzərə fərqlidir. Belə ki, Azərbaycan və ABŞ-ın münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə qaldırılması niyyəti həm Prezident İlham Əliyev, həm də ABŞ-ın yeni administrasiyası səviyyəsində təsdiqlənib. Bu, respublikamızın ABŞ ilə əməkdaşlığa böyük önəm verdiyi kimi, Ağ Evin yeni administrasiyasının da respublikamızın  Cənubi Qafqazın lider dövləti olmasını yüksək dəyərləndirməsinin ifadəsidir.

Burada bir qədər keçmişə ekskurs etmək yerinə düşər. Ağ Evin əvvəlki rəhbərliyinin - Bayden-Blinken administrasiyasının məqsədi Azərbaycanı qaralamaq, gözdən salmaq idi. Ordumuzun 2023-cü ilin sentyabr ayında keçirdiyi uğurlu lokal xarakterli antiterror tədbirlərindən sonra Azərbaycandan Vaşinqtona rəsmi nümayəndə heyətlərinin səfərlərini təxirə salmışdılar. Hətta respublikamıza qarşı sanksiyalar barədə düşünənlər də var idi. Lakin Azərbaycan bütün bu təzyiqlərin qarşısında sınmadı, ləyaqətini itirmədi, milli maraqlarından bir addım də geri çəkilmədi.

Ağ Evin yeni administrasiyasının isə haqq-ədalət, beynəlxalq hüquq mövqeyindən çıxış edən, özünün milli maraqlarını və suverenliyini qətiyyətlə qoruyan Azərbaycana münasibəti fərqlidir. Bunu D.Trampın ifadə etdiyi fikirlər də əyani şəkildə təsdiqləyir. "Ölkələrimiz uğurlara doğru sürətlə irəlilədikcə Sizinlə işləməyi səbirsizliklə gözləyirəm. Birləşmiş Ştatlar Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olaraq qalır", - deyə onun Azərbaycan Prezidentinə ünvanladığı məktubda vurğulanıb.

Belə səmimi münasibətin davamı olaraq Prezident İlham Əliyevin ABŞ-a işgüzar səfəri çərçivəsində Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi istiqamətində iki ölkənin prezidentləri tərəfindən "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalanıb.

Anlaşma Memorandumuna əsasən, qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edəcək Strateji Tərəfdaşlıq Xartiyasının növbəti 6 ay ərzində hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupu yaradılması nəzərdə tutulur. Strateji İşçi Qrupu çərçivəsində enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar, süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayə, eləcə də müdafiə, təhlükəsizlik və terrorla mübarizə kimi sahələrin prioritetləşdirilməsi planlaşdırılır. Bu, ikitərəfli praktiki əməkdaşlıq üçün institusional çərçivənin təsis edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Strateji əməkdaşlıq çərçivəsində iki ölkə arasında enerji dialoqu davam edəcək. Amerika Birləşmiş Ştatları Azərbaycanın uzun illərdən bəri enerji sahəsində sadiq tərəfdaşıdır. Bu ölkənin şirkətləri Azərbaycanın Xəzərdəki zəngin karbohidrogen yataqlarının işlənilməsi üzrə imzalanan layihələrdə iştirak edirlər. Azərbaycan özünün enerji strategiyası, eləcə də regionda sabitliyə və inkişafa xidmət edən nəhəng infrastruktur layihələrinin həyata keçməsinə ABŞ-ın göstərdiyi davamlı dəstəyi yüksək qiymətləndir.



Azərbaycan Prezideninin ABŞ-a işgüzar səfəri çərçivəsində isə dövlətimizin başçısının və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə SOCAR-la "ExxonMobil" şirkəti arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalanıb. Sənəd şirkətlər arasında mövcud olan müsbət əlaqələri möhkəmləndirmək və Azərbaycan Respublikasında həm qeyri-ənənəvi, həm də ənənəvi neft və qaz imkanlarının dəyərləndirilməsi istiqamətində potensial əməkdaşlıq sahələrini ehtiva edir.

Yaxşı haldır ki, Azərbaycanla ABŞ arasında ötən əsrin doxsanıncı illərindən başlayan enerji əməkdaşlığı perspektivdədə davam etdiriləcək. Memorandumun imzalanması o anlama gəlir ki, ABŞ-da Azərbaycanın ədalətli enerji siyasəti yüksək dəyərləndirlir və ölkəmizlə əməkdaşlığn davam etdirlməsinə böyük maraq göstərilir.

Azərbaycan Prezidentinin səfəri həmçinin iki ölkənin prezidentləri arasında keçirilən görüş çərçivəsində ABŞ Prezidenti tərəfindən Azadlığa Dəstək Aktına 907-ci düzəlişin tətbiqinin dayandırılması barədə Sərəncamın imzalanması ilə əlamətdar olub. Konqres tərəfindən 1992-ci ildə qəbul edilmiş Azadlığa Dəstək Aktı qanunu sosialist sistemin dağılmasından sonra öz müstəqilliyini elan etmiş dövlətlərə ABŞ tərəfindən yardımın göstərilməsini ehtiva edib. Lakin 1992-ci ilin oktyabr ayında ABŞ-da erməni lobbisinin təsiri altında qəbul olunan Azadlığa dəstək Aktına 907-ci düzəliş adlı sənəd Vaşinqton-Bakı münasibətlərinin inkişafında mənfi rol oynayıb. Sonrakı dövrlərdə ABŞ prezidentləri 907-ci düzəlişin icrasını müvəqqəti dayandırsa da, Bayden-Blinken administrasiyası bu ədalətsiz qərarı yenidən qüvvəyə mindirərək, Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışıb.

Artıq bu bədnam sənəd də tarixin toz basmış arxivinə göndərilir. Azərbaycan-ABŞ münasibətlərində keçmişin mənfi mirası olan 907-ci düzəlişin tətbiqinin ABŞ Prezidenti tərəfindən Prezident İlham Əliyevlə görüş çərçivəsində dayandırılması əhəmiyyətli rəmzi məna daşıyır.

# Azərbaycanın tarixi uğuru - ATƏT-in Minsk Qrupunun de-yure ləğvi gündəmdə

Prezident İlham Əliyevin ABŞ-a səfəri, həmçinin Azərbaycan-Ermənistan normallaşma prosesi kontekstində mühüm nəticələrlə əlamətdar olub. Səfər zamanı, Azərbaycan, Amerika Birləşmiş Ştatları və Ermənistan liderlərinin Sammiti keçirilib və bu görüşün nəticəsində Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən Birgə Bəyannam imzalanıb. Bununla yanaşı, hər iki ölkənin xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında Saziş" layihəsi paraflanıb və ATƏT-in Minsk Prosesi və əlaqəli strukturlarının bağlanması ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədrinin ünvanına birgə müraciət məktubu imzalanıb.

Vaşinqton görüşünün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması Azərbaycanın irəli sürdüyü sülh gündəliyini təsdiq edib. Sülh müqaviləsinin paraflanması ilə Azərbaycan beynəlxalq müstəvidə düşmənlərini, xüsusən "Bu gün-sabah Azərbaycan Zəngəzuru tutacaq" deyib gecə-gündüz ölkəmizə iftira yağdıranların əlini-qolunu bağladı, onların arqumentlərini əllərindən aldı, beynəlxalq imicini daha da yaxşılaşdırdı

Əlbəttə, tarixin atavizmi olan eybəcər Minsk Qrupu onsuz da defakto mövcud  deyil.  Amma onun rəsmən ləğv edilməsi keçmiş "Dağlıq Qarabağ" münaqişəsinin "sənədli-sübutlu" tamamilə bağlanması deməkdir. Bu, Azərbaycan üçün tarixi uğurdur. Artıq Ermənistanda və ondan kənarda revanşistlərin, Ermənistanın faşist prezidentləri - Ter-Petrosyan-Koçaryan-Sarqsyanın, erməni lobbisinin, Azərbaycan düşmənlərinin "tutacağ"ı yoxdur.

# Zəngəzur dəhlizi ideyası reallığa çevrilir

Vaşinqtonda imzalanan Birgə Bəyannamədə xüsusi əhəmiyyət kəsb edən daha bir müddəa iki ölkə arasında nəqliyyat kommunikasiyalarının açılmasına dair bənddir. Burada, regionda kommunikasiyaların açılması çərçivəsində Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsinin zəruri olduğu vurğulanıb.

Sənəddə, həmçinin Ermənistan ərazisində xüsusi bağlantı layihəsi - "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun həyata keçiriləcəyi təsbit olunub. Bu müddəa Ermənistan ərazisi vasitəsilə Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsi məqsədilə ABŞ tərəfindən həyata keçiriləcək layihəni nəzərdə tutur.

Zəngəzur dəhlizi məsələsi Prezident İlham Əliyevin dahi gedişlərindən biridir. Aydındır ki, bu təşəbbüslə Laçın yoluna qarşı əks balansın yaradılması da nəzərdə tuturdu. Ermənistan sadəlövhcəsinə düşünürdü ki, Azərbaycan Qarabağda öz məqsədlərinə tam nail olandan sonra Zəngəzur dəhlizini unudacaq, sakitləşəcək.  Amma əksinə oldu. Necə deyərlər, söz danışıqdan keçər.

Təxminən 5 ilə qədərdir ki Ermənisanın məsələni yubatmasına, "Sülh kəsişməsi" adlı utopik layihə irəli sürərək oyunbazlıqla məşğul olmasına baxmayaraq, Azərbaycan ən böyük məqsədlərindən birinə - Zəngəzur dəhlizinin açılmasına nail olur. "Tramp yolu" adlanmasına baxmayaraq, hamı başa düşür ki, söhbət məhz Zəngəzur dəhlizindən gedir. Azərbaycan ilk gündən təkid etdiyi maneəsiz gedişə nail olur.

Yuxarıda vurğuladığımız kimi, Zəngəzur dəhlizinin idarəetməsi ABŞ-da olacaq. Mollalar, SEPAH, vilayətilər indi gedib ABŞ-la "qırmızı xəttləri"ni müzakirə etsinlər.

Tarixdə müharibəni udub amma diplomatiyada uduzan o qədər ölkə var ki! Amma Azərbaycan həm müharibədə tam və mütləq qələbə çalıb, həm onun nəticələrini beynəlxalq ictimaiyyətə qəbul etdirib, eyni zamanda, Vaşinqton zəfəri ilə sülhü qazanıb. Xüsusən, 2020-ci ildən sonra Azərbaycanı tələyə salmaq istəyənlər özləri tələyə düşdülər. Azərbaycanı dünyadan təcrid etmək istəyənlərin özləri təcrid vəziyyətddə qaldılar. Həmin dairələr bundan sonra daha cılız, daha gülünc görünəcəklər.

***Mübariz ABDULLAYEV***

# Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsi haqqında SAZİŞ

Azərbaycan Respublikası və Ermənistan Respublikası (bundan sonra Tərəflər), bölgədə ədalətli, hərtərəfli və davamlı sülhün təsis edilməsinə təcili zərurəti anlayaraq, bu məqsədə dövlətlərarası münasibətlərin təsis edilməsi yolu ilə töhfə verməyi arzulayaraq, BMT Nizamnaməsini, BMT Nizamnaməsinə uyğun olaraq dövlətlər arasında dostluq münasibətləri və əməkdaşlıq ilə bağlı beynəlxalq hüququn prinsipləri haqqında Bəyannaməni (1970), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Konfransının Helsinki Yekun Aktını (1975) və 21 dekabr 1991-ci il tarixli Almatı Bəyannaməsini rəhbər tutaraq və orada əks olunmuş norma və prinsiplər əsasında əlaqələri inkişaf etdirmək məqsədi güdərək, öz aralarında mehriban qonşuluq münasibətləri təsis etməklə bağlı qarşılıqlı iradəni ifadə edərək, Aşağıdakılar əsasında öz aralarında sülh və dövlətlərarası münasibətləri təsis etmək barədə razılığa gəlirlər:

**Maddə I**

Tərəflər, keçmiş SSRİ-nin Sovet Sosialist Respublikaları arasında sərhədlərin müvafiq müstəqil dövlətlərin beynəlxalq sərhədlərinə çevrildiyini və beynəlxalq birlik tərəfindən bu şəkildə tanındığını təsdiq edərək, bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini tanıyır və hörmət edirlər;

**Maddə II**

Tərəflər, I Maddəyə tam riayət etməklə, bir-birinə qarşı hər hansı ərazi iddialarının olmadığını və gələcəkdə belə iddialar qaldırılmayacağını təsdiq edirlər; Tərəflər digər tərəfin ərazi bütövlüyü və ya siyasi birliyini tamamilə və ya qismən parçalamağa yönəlmiş hər hansı bir hərəkətə, o cümlədən belə hərəkətlərin planlaşdırılmasına, hazırlanmasına, həvəsləndirilməsinə və dəstəklənməsinə yol verməyəcəklər.

**Maddə III**

Tərəflər bir-biri ilə qarşılıqlı münasibətlərdə ərazi bütövlüyü və ya siyasi müstəqilliyə qarşı və ya BMT Nizamnaməsinə zidd olan hər hansı bir digər formada, güc tətbiq etməkdən və ya güc tətbiq etməklə hədələməkdən çəkinəcəklər. Onlar öz müvafiq ərazilərindən hər hansı üçüncü tərəfin digər Tərəfə qarşı BMT Nizamnaməsinə zidd olaraq güc tədbiq etmək üçün istifadə edilməsinə imkan verməyəcəklər.

**Maddə IV**

Tərəflər bir-birinin daxili işlərinə müdaxilədən çəkinəcəklər.

**Maddə V**

Tərəflər, bu Sazişin ratifikasiya olunması sənədlərinin hər iki tərəfdən mübadilə edilməsindən sonra ______ gün ərzində öz aralarında Diplomatik və Konsulluq münasibətləri haqqında Konvensiyaların (müvafiq olaraq, 1961 və 1963-cü illərin) müddəalarına uyğun olaraq, öz aralarında diplomatik münasibətləri quracaqlar.

**Maddə VI**

Tərəflər, hazırkı Sazişin I Maddəsindən irəli gələn öhdəliklərinə tam uyğun olaraq, onlar arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası haqqında Sazişin bağlanması məqsədilə müvafiq sərhəd komissiyaları arasında bu Komissiyaların razılaşdırılmış əsasnamələri əsasında vicdanla danışıqlar aparacaqlar.



**Maddə VII**

Tərəflər qarşılıqlı sərhədə hər hansı üçüncü tərəfin qüvvələrini yerləşdirməyəcəklər. Tərəflər, qarşılıqlı sərhədin delimitasiyası və sonrakı demarkasiyasının başa çatmasına qədər, sərhəd bölgələrində təhlükəsizlik və sabitliyin təmin olunması məqsədilə, hərbi sahə də daxil olmaqla, qarşılıqlı razılaşdırılmış təhlükəsizlik və etimad-qurucu  luğu tədbirləri həyata keçirəcəklər.

**Maddə VIII**

Tərəflər dözümsüzlük, irqi nifrət və ayrıseçkilik, separatizm, zorakı ekstremizm və terrorizmin bütün təzahürlərini pisləyirlər və özlərinin müvafiq yurisdiksiyaları çərçivəsində bu hallarla mübarizə aparacaqlar və özlərinin bununla bağlı müvafiq beynəlxalq öhdəliklərinə əməl edəcəklər.

**Maddə IX**

Tərəflər, onların hər ikisinin də cəlb olunduğu hərbi münaqişədə baş vermiş itkin düşmüş şəxslər və məcburi yoxaçıxma ilə bağlı halların həlli üçün birbaşa və ya müvafiq olduğu təqdirdə, aidiyyəti beynəlxalq təşkilatlarla əməkdaşlıq vasitəsilə, həmin şəxslər haqqında bütün mövcud məlumatların mübadiləsi də daxil olmaqla, tədbirlər görəcəklər. Tərəflər, bu çərçivədə, sözügedən şəxslərin taleyinə aydınlıq gətirilməsinin, o cümlədən müvafiq olduğu təqdirdə, onların qalıqlarının axtarılması və geri qaytarılmasının, zəruri istintaq tədbirləri yolu ilə həmin şəxslərə münasibətdə ədalətin təmin edilməsinin barışıq və etimadın qurulması vasitəsi kimi əhəmiyyətini qəbul edirlər. Bununla əlaqəli müvafiq modallıqlar müzakirə ediləcək və ayrıca sazişdə təfərrüatlı şəkildə razılaşdırılacaqdır.

**Maddə X**

Tərəflər, iqtisadiyyat, tranzit və nəqliyyat, ətraf mühit, humanitar və mədəniyyət daxil olmaqla, müxtəlif sahələrdə əməkdaşlığın təsis edilməsi üçün qarşılıqlı maraq kəsb edən aidiyyəti istiqamətlər üzrə ayrıca razılaşmalar bağlaya bilərlər.

**Maddə XI**

Hazırkı Saziş Tərəflərin beynəlxaq hüquq və onların hər birinin digər BMT üzvdövlətləri ilə bağlanmış müqavilələr üzrə hüquq və öhdəliklərinə xələl gətirmir. Tərəflərdən hər biri onunla digər hər hansı üçüncü tərəf arasında hazırda qüvvədə olan beynəlxalq razılaşmaların onun bu Saziş üzrə götürdüyü öhdəliklərinə xələl gətirməməsini təmin edəcəklər.

**Maddə XII**

Tərəflər ikitərəfli münasibətlərində beynəlxalq hüququ və bu Sazişi rəhbər tutacaqlar. Tərəflərdən heç biri özünün daxili qanunvericiliyinin müddəalarına bu Sazişi icra etməməyə haqq qazandırmaq üçün istinad etməyəcəklər; Tərəflər, Müqavilələr hüququ haqqında Vyana Konvensiyasına (1969) uyğun olaraq, bu Sazişin qüvvəyə minməsindən əvvəl onun obyekti və məqsədinə xələl gətirən fəaliyyətlərdən çəkinəcəklər.

**Maddə XIII**

Tərəflər bu Sazişin tam icrasına zəmanət verirlər və hazırkı Sazişin icrasına nəzarət məqsədilə ikitərəfli komissiya təsis edəcəklər. Bu Komissiya Tərəflər arasında razılaşdırılacaq modallıqlar əsasında fəaliyyət göstərəcək.

**Maddə XIV**

Tərəflər, onların beynəlxalq hüquq və qarşılıqlı münasibətlərində onlar üçün məcburi xarakter daşıyan müqavilələr üzrə hüquq və öhdəliklərinə xələl gətirmədən, bu Sazişin təfsiri və tətbiqi ilə bağlı hər hansı mübahisəni, XIII Maddədə istinad olunan Komissiya da daxil olmaqla, birbaşa məsləhətləşmələr yolu ilə həll etmək istiqamətində çalışacaqlar. Bu məsləhətləşmələr 6 ay ərzində Tərəflərin hər ikisi üçün məqbul nəticə vermədiyi təqdirdə, Tərəflər mübahisələrin dinc yolla həllinin digər vasitələrinə müraciət edəcəklər.

**Maddə XV**

XIV Maddəyə xələl gətirmədən, Tərəflər hər hansı bir hüquqi müstəvidə onlar arasında bu Sazişin imzalanmasından əvvəl mövcud olan bütün dövlətlərarası iddiaları, şikayətləri, etirazları, iradları, icraatları və mübahisələri bu Sazişin qüvvəyə mindiyi gündən bir ay ərzində geri çəkəcək, xitam verəcək və ya hər hansı bir formada həll edəcəklər və bir-birinə qarşı bu cür iddiaları, şikayətləri, etirazları, iradları və icraatları başlatmayacaq, və tərəflərdən hər hansı birinə qarşı hər hansı digər üçüncü tərəfin başlatdığı bu kimi iddia, şikayət, etiraz, irad və icraatlara hər hansı bir formada cəlb olunmayacaqlar; Tərəflər bu Sazişin ziddinə bir-birinə qarşı diplomatik, informasiya və digər sahələrdə düşmən addımlar atmayacaq, bu addımları həvəsləndirməyəcək və ya hər hansı bir formada bu fəaliyyətlərə cəlb edilməyəcək və bu məqsədlə bir-birləri ilə müntəzəm məsləhətləşmələr həyata keçirəcəklər.

**Maddə XVI**

Bu Saziş Tərəflərin öz milli qanunvericiliklərinə uyğun olaraq daxili prosedurların bitməsi barədə bildiriş sənədlərinin mübadiləsindən sonra qüvvəyə minəcək. Bu Saziş BMT Nizamnaməsinin 102-ci maddəsinə uyğun olaraq qeydiyyatdan keçiriləcək.

**Maddə XVII**

Hazırkı Saziş Azərbaycan, erməni və ingilis dillərində bağlanılmışdır, bütün üç mətn bərabər autentikdir. Hər hansı autentik mətnin müddəasının təfsirində fikir ayrılığı olduqda ingilis dilindəki mətn üstünlük təşkil edəcəkdir.

Tarix, məkan

# Zəngəzur: Tək yol deyil, yeni dövrün başlanğıcıdır

## Azərbaycanın geosiyasi uğuru və yeni regional reallıqlar

Azərbaycan və ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi, liderlər səviyyəsində bu niyyətin açıq şəkildə bəyan edilməsi yeni bir mərhələnin başlanğıcı kimi qiymətləndirilməlidir. ABŞ-ın Cənubi Qafqazda aktivləşməsi və Azərbaycanla daha dərin əməkdaşlığa getməsi, regionda mövcud olan güc balansını dəyişdirməyə qadirdir.

ABŞ üçün Azərbaycan təkcə enerji təhlükəsizliyinin təminatçısı deyil, həm də Çin-Avropa Orta Dəhlizində əsas tranzit ölkəsi kimi mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Zəngəzur dəhlizi yalnız regional layihə kimi yox, həm də qlobal geosiyasi aktorların maraq dairəsinə daxil olan strateji arteriya kimi dəyərləndirilir.

Zəngəzur dəhlizi Azərbaycanın Qərb rayonlarını Naxçıvanla və oradan da Türkiyə ilə birləşdirən vacib nəqliyyat xəttidir. Bu layihə Azərbaycanın Orta Dəhlizdəki rolunu gücləndirməklə yanaşı, regiondakı logistik üstünlüyünü daha da artırır. Beləliklə, Zəngəzur dəhlizi nəinki Bakı və Ankara üçün, həm də ABŞ üçün strateji prioritetlər sırasında yer almağa başlayır.

### Təhlükəsizlik zəmanəti və yeni cazibə mərkəzi

Zəngəzur dəhlizində ABŞ-ın iştirakı layihənin sabit və davamlı şəkildə işləməsi üçün ciddi təhlükəsizlik zəmanəti yaradır. Bu, həm regional aktorlar, həm də xarici investorlar üçün mühüm siqnaldır. Lakin bu reallıq iki əsas regional oyunçunun - İran və Rusiyanın narahatlığını artırır.

Gözlənildiyi kimi, İranda mühafizəkar dairələr Vaşinqton razılaşmasının əleyhinə çıxıblar. Onların aparıcı nümayəndələrindən biri, ali dini liderin müşaviri Əli Əkbər Vilayəti razılaşmanı qəbul edən tərəfləri açıq şəkildə hədələyib. Vilayəti "Zəngəzur dəhlizi" layihəsini İranın milli birliyi və ərazi bütövlüyü üçün "böyük təhdid" adlandırmış və bu təşəbbüsün Cənubi Qafqazdakı geosiyasi balansı poza biləcəyini bildirmişdi. Onun sözlərinə görə, İran Vaşinqton razılaşmasında Zəngəzur dəhlizi ilə bağlı müddəanın reallaşmasına imkan verməyəcək. Lakin son zamanlar İsrailin zərbələri nəticəsində qorxusundan gizləndiyi deyilən Vilayətinin açıqlamaları indi artıq təsirini itirmiş, keçmişin kölgəsində qalmış bir siyasi fiqurun uğursuz ritorikası kimi dəyərləndirilir.

Zəngəzur dəhlizinin gündəmə gəlməsi hər dəfə İran tərəfindən müxtəlif və birmənalı olmayan reaksiyalarla qarşılanır. Rəsmilər zaman-zaman bu dəhlizin açılmasına hər vasitə ilə mane olacaqlarını bildirirlər. Ancaq məlumdur ki, dünyanın əsas güc-




İran uzun illərdir ki, Cənubi Qafqazda baş verən prosesləri öz milli təhlükəsizliyi üçün kritik məsələ kimi qiymətləndirir. Zəngəzur dəhlizinin açılması və bu prosesdə ABŞ və Qərbin fəal iştirakı Tehran üçün qəbuledilməz bir geosiyasi reallıqdır. Regiondakı təsirini SEPAH (İslam İnqilabı Keşikçiləri Korpusu) vasitəsilə qorumağa çalışan İran, artıq bu "qırmızı xətləri - xüsusən Qərb dövlətləri və ABŞ bu dəhlizin açılmasında maraqlıdır. İran isə bu vəziyyətdən narahatdır və qeyri-müəyyən bəyanatlarla prosesə təsir göstərməyə çalışır.

### İranın narahatlığının arxasında nə dayanır?

lər"in effektivliyini itirdiyini müşahidə edir.

Əgər ABŞ-ın Zəngəzur dəhlizində iştirakı reallaşarsa, İranın sərt ritorikadan konkret addımlara keçməsi onu beynəlxalq arenada daha da təcrid edə bilər. Xüsusilə də mövcud iqtisadi böhran, daxili siyasi qeyri-sabitlik və Qərb sanksiyaları fonunda Tehran Cənubi Qafqazda aqressiv siyasət yürütmək imkanlarını getdikcə itirir. Bu səbəbdən İranın güc strukturları ABŞ-la gizli danışıqlar aparmağa və yeni geosiyasi reallığı qəbul etməyə məcbur qala bilərlər.

İran Prezidenti Məsud Pezeşkian ilk dəfə olaraq "Zəngəzur dəhlizi" məsələsinə münasibət bildirib və ölkəsinin mövqeyini aydın şəkildə izah edib. Jurnalistlərin suallarını cavablandıran Pezeşkian, mediada yayılan məlumatların həqiqəti tam əks etdirmədiyini qeyd edib. Onun bu bəyanatı, son aylarda İran rəsmilərinin - xüsusilə də ali liderin müşaviri Əli Əkbər Vilayətinin - sərt mövqeləri fonunda gözlənilməz bir yumşalma kimi qiymətləndirilir. Öz növbəsində, İranın xarici işlər naziri Abbas Əraqçi da "Zəngəzur dəhlizi" ilə bağlı mübahisənin artıq aradan qalxdığını bildirib.

### Zəngəzur Dəhlizi - Qlobal layihəyə çevrilən regional inkişaf marşrutu

Bu gün Zəngəzur dəhlizi artıq yalnız Azərbaycan-Ermənistan münasibətləri və ya Azərbaycan-Türkiyə əməkdaşlığı çərçivəsində dəyərləndirilmir. Dəhliz Orta Dəhlizin "ürəyi", Şərqlə Qərbi birləşdirən əsas logistik arteriya kimi formalaşmaqdadır. ABŞ və digər beynəlxalq güclərin layihəyə maraq göstərməsi onu həm geosiyasi, həm də iqtisadi baxımdan çoxmillətli və strateji xarakterli bir platformaya çevirir. ABŞ-la əməkdaşlıq çərçivəsində Zəngəzur dəhlizinin reallaşdırılması Azərbaycanın beynəlxalq mövqelərini daha da gücləndirir və onu regional logistik qovşağa çevirir.

### Diplomatiyanın və liderliyin zəfəri

Prezident İlham Əliyevin Zəngəzur dəhlizi ilə bağlı təşəbbüsü yalnız nəqliyyat layihəsi deyil, postmünaqişə dövrünün yeni geosiyasi düzəninin formalaşdıran vizyonun tərkib hissəsi kimi qiymətləndirilməlidir.

Azərbaycanın məqsədi birmənalı idi. 10 noyabr 2020-ci il bəyanatında yer alan öhdəliklərə əməl olunmalı, bölgədə balanslı və qarşılıqlı hüquqlar təmin edilməlidi. Ermənistan isə məsələnin gündəlikdən çıxacağını, Azərbaycanın bu məsələyə artıq önəm verməyəcəyini düşünürdü. Hətta "Sülh kəsişməsi" adlı utopik layihə irəli sürülərək prosesi uzatmaq və beynəlxalq diqqəti yayındırmaq cəhdləri də edildi. Lakin bu layihə real texniki və hüquqi bazadan məhrum olduğu üçün nə region, nə də beynəlxalq güclər tərəfindən ciddiyə alınmadı.

Azərbaycan isə bütün bu illər ərzində aydın, prinsipial və ardıcıl diplomatik kurs yürüdərək məqsədinə çatdı. Artıq "Tramp yolu" adlandırılsa da, bütün tərəflər anlayır ki, söhbət məhz Zəngəzur dəhlizindən gedir və Azərbaycanın uzun müddət təkid etdiyi məntiqi və ədalətli prinsipi reallığa çevrilməkdədir.

### Sülh müqaviləsinin paraflanması: Dezinformasiya cəbhəsində qələbə

Azərbaycan və Ermənistan arasında uzun illər davam edən gərgin münasibətlərin sülh müqaviləsinin paraflanması ilə yeni mərhələyə keçməsi təkcə region üçün deyil, beynəlxalq ictimaiyyət üçün də ciddi əhəmiyyət daşıyır. Bu sənədin imzalanması ilə Azərbaycan həm strateji, həm diplomatik, həm də informasiya cəbhəsində mühüm qələbə qazanmış oldu.

Son illər bəzi xarici dairələr Azərbaycanın guya, Zəngəzura qarşı hərbi planlar qurduğunu, Ermənistanı təhdid etdiyini iddia edir, "Azərbaycan sabah Zəngəzuru tutacaq" kimi təxribatçı şüarlar səsləndirirdilər. Lakin sülh müqaviləsinin paraflanması bu iddiaların əsassız olduğunu bütün dünyaya nümayiş etdirdi.

Azərbaycan bu addımı ilə bir daha sübut etdi ki, beynəlxalq hüququn norma və prinsiplərinə sadiqdir və bütün məsələlərin siyasi-diplomatik yollarla həllində maraqlıdır. Bu yanaşma, Azərbaycanın beynəlxalq imicini daha da möhkəmləndirməklə yanaşı, onu münaribədə olduğu kimi sülhdə də qalib olan ölkə kimi təqdim edir.

### Yeni dövr başlayır

Zəngəzur dəhlizi layihəsi bu gün Azərbaycanın siyasi uzaqgörənliyi və liderlik keyfiyyətlərinin konkret nəticəsidir. Layihənin reallaşması təkcə Azərbaycanın deyil, bütün regionun geoiqtisadi xəritəsini dəyişdirəcək, bölgəni yeni əməkdaşlıq imkanlarına açacaq. Azərbaycan sülh və sabitlik xəttini davam etdirərək yalnız müharibədə deyil, sülh diplomatiyasında da qalib olduğunu bir daha sübut etdi. Zəngəzur dəhlizi artıq söz yox, fakt səviyyəsindədir. Bu isə regionda tamamilə yeni bir dövrün başlandığını göstərir.

*Elşən YƏHYAYEV,*
*yeniazerbaycan.com saytının redaktoru*



# Əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi

Azərbaycan Prezidenti İlham Əliyevin bu günlərdə Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərinin gündəliyi kifayət qədər geniş əhatə dairəsinə malik olub. Səfər çərçivəsində keçirilən görüşlər, aparılan müzakirələr və imzalanan sənədlər, həmçinin Azərbaycan - ABŞ münasibətləri kontekstində yüksək dəyərləndirilir. Dövlətimizin başçısı avqustun 8-də Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində səfərin nəticələrini çox yüksək qiymətləndirdiyinə xüsusi vurğu edib. "İlk növbədə, Prezident Trampın dəvəti ilə Amerikada işgüzar səfərdə olmaq, əlbəttə ki, Azərbaycan-Amerika münasibətləri üçün çox önəmli bir məsələdir", - deyə Prezident İlham Əliyev bildirib.

## İlham Əliyev: "Azadlığa dəstək aktı"na edilən bu ədalətsiz 907-ci düzəlişdən mənim iştirakımla oval ofisdə imtina çox rəmzi məna daşıyır. Prezident Tramp bunu başqa formada da edə bilərdi. O, bunu daha sonra da imzalaya bilərdi. Amma bunu hələ 1992-ci ilin oktyabrından bəri Konqres tərəfindən haqsız olaraq sanksiyaya məruz qalan Azərbaycanın Prezidentinin qarşısında etmək qərarına gəldi

### Gələcək əməkdaşlığın mühüm istiqamətləri

Hazırda ABŞ-la sıx təmaslar qurmağa can atan ölkələrin sayı kifayət qədər çoxdur ki, bu da təsadüfi deyil. Amerika Birləşmiş Ştatları dünyanın əsas siyasi, iqtisadi və hərbi güc mərkəzidir, qlobal siyasəti istiqamətləndirən və mükəmməl nəticələrə nail olan dövlətdir. Deyə bilərik ki, dünya gündəliyi məhz Vaşinqtonda müəyyənləşir. Azərbaycan məhz Prezident İlham Əliyevin apardığı siyasətin, regionda yaratdığı yeni reallıqların nəticəsi olaraq ABŞ üçün önəmli bir dövlətə çevrilib. Donald Tramp tərəfindən dövlətimizin başçısına xüsusi ehtiram göstərilməsi bunu əyani şəkildə təsdiqləyir. Ağ Ev sahibi son altı ayda İlham Əliyevə münasibətdə bir neçə dəfə xoşməramlı jestlər edib. Xatırlayaq ki, D.Tramp bir qədər bundan əvvəl Prezident İlham Əliyevin III Şuşa Qlobal Media Forumundakı çıxışından bir parçanı özünün sosial şəbəkə hesabında paylaşıb. Bu, adi bir hadisə deyil. D.Tramp supergüc dövlətin rəhbəridir, dünyanın gözü ondadır. O isə sosial şəbəkə hesabında kiçik Azərbaycanın dövlət başçısının çıxışından bir hissəni paylaşır. Bu o anlama gəlir ki, okeanın o tayında Azərbaycan həqiqətlərinə diqqət var və bu həqiqətlər qəbul olunaraq təqdir və təşviq olunur. Həmin çıxışında dövlətimizin başçısı D.Trampı sülh Prezidenti kimi səciyyələndirib. Hazırda dünyada bir sıra müharibələrin alovlandığı bir şəraitdə ABŞ Prezidentinin sülh ritorikasından çıxış etməsi, hər yerdə müharibələri dayandırmağa çalışması diqqətəlayiq haldır. Ağ Evin yeni sahibinin sülh Prezidenti olduğuna bir daha diqqət çəkən Prezident İlham Əliyev "Təbii ki, Prezident Trampa mənim şəxsi münasibətim hər zaman çox müsbət olub və hətta keçən ilin ortalarında mənə ABŞ-dakı seçkilərlə bağlı sual verəndə, mən düşündüyümü açıq şəkildə demişdim. Demişdim ki, biz onu dəstəkləyirik. Çünki o, yeganə ki, müharibələr başlamayan yeganə Amerika prezidentidir və bu həqiqətdir. O, Azərbaycan xalqı kimi ailə dəyərlərinə önəm verən insandır. Təbii ki, bu gün mətbuat konfransında qeyd etdiyim kimi, o, bu altı ay ərzində qeyri-mümkün görünən işlər gördü: istər Afrikada, Asiyada və Cənubi Qafqazda. O, sülh gətirir və ortaya nəzərəçarpan nəticələr qoyur. Beləliklə, mən bu baxımdan bizim şəxsi münasibətlərimizi yüksək qiymətləndirirəm. Əminəm ki, növbəti illərdə bu şəxsi münasibətlər ölkələrimiz arasında dövlətlərarası əlaqələrə çox müsbət təsir göstərəcək", - deyə bildirib.

Prezident İlham Əliyev də oxşar mövqeni bölüşür. Xatırlayaq ki, 44 günlük müharibədən sonra dövlətimizin başçısı gələcəyə baxmaq əzmini ortaya qoydu, Ermənistanla sülh prosesinə başlamaq təşəbbüsünü irəli sürdü və sonrakı mərhələdə Onun göndəlik səyləri sayəsində tənzimləmə prosesi irəliləsdi və artıq məntiqi sonluğa çatmaq üzrədir.

Təəssüf ki, bundan əvvəlki administrasiya dönəmində ABŞ - Azərbaycan münasibətlərində, necə deyərlər, geridönüş baş vermişdi. Təsadüfi deyildir ki, dövlətimizin başçısı əvvəlki administrasiya dövründəki dörd il itirilmiş illər kimi qiymətləndirib. Çünki əfsuslar olsun ki, Bayden administrasiyası zamanı Amerika-Azərbaycan əlaqələri Azərbaycan-Ermənistan əlaqələrinin girovuna çevrilmişdi. Bizim Amerika Birləşmiş Ştatları ilə əvvəlki dövrdə əldə edilmiş nailiyyətlər və potensial demək olar ki, dondurulmuş vəziyyətə salınmışdı.

Buna görə də indi Azərbaycan vaxt itirmək istəmir. Ağ Evin yeni administrasiyasının ökəmizə səmimi münasibətinin davamı olaraq Prezident İlham Əliyevin ABŞ-a işgüzar səfəri çərçivəsində Azərbaycanla ABŞ arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi istiqamətində iki ölkənin prezidentləri tərəfindən "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" imzalanıb. Bunu yüksək dəyərləndirən Prezident İlham Əliyev vurğulayıb: "Deyə bilərəm ki, bu gün Amerika-Azərbaycan münasibətlərində yeni səhifə açılır: əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi. Əlbəttə ki, Azərbaycanın milli maraqlarının qorunması üçün Amerika Birləşmiş Ştatları ilə bu səviyyədə münasibətlərin qurulması çox önəmli məsələdir".

Vurğulandığı kimi bu sənədin böyük əhəmiyyəti var. Sözügedən sənəddə gələcək əməkdaşlıq istiqamətləri açıq-aydın təsbit edilib. Bu sırada aşağıdakıları sadalamaq mümkündür:

-Qarşılıqlı sərmayə qoyuluşu,

- Nəqliyyat, bağlantılar, təhlükəsizlik, süni intellect sahəsində əməkdaşlıq,

-Müdafiə sənayesi və müdafiə sahələri üzrə qarşılıqlı fəaliyyətlər və s.

Bütün bunlar onu deməyə əsas verir ki, imzalanan sənəd qarşıda geniş perspektivlər açır. Artıq Prezident İlham Əliyevin göstərişi əsasında Azərbaycan tərəfini təmsil edəcək tərkib müəyyən olunub. Respublikamız bir sıra təkliflər irəli sürmək niyyətindədir və artıq müzakirələrə start verilib.

### Bədnam 907-ci düzəlişin Azərbaycan Prezidentinin iştirakı ilə ləğvi rəmzi məna daşıyır

Müstəqil Azərbaycanla ABŞ arasında münasibətlərdən bəhs edərkən istər-istəməz yada həm də "Azadlığa dəstək aktı"na bədnam 907-ci düzəliş düşür. Konqres tərəfindən 1992-ci ildə qəbul edilmiş "Azadlığa dəstək aktı" qanunu sosialist sistemin dağılmasından sonra öz müstəqilliyini elan etmiş dövlətlərə ABŞ tərəfindən yardımın göstərilməsini ehtiva edib. Lakin 1992-ci ilin oktyabr ayında ABŞ-da erməni lobbisinin təsiri altında qəbul olunan "Azadlığa dəstək Aktına 907-ci düzəliş" adlı sənəd Vaşinqton-Bakı münasibətlərinin inkişafında mənfi rol oynayıb.

Prezident İlham Əliyev müsahibəsində 907-ci düzəlişin tarixinə qısa ekskurs edib, onun bədnam mahiyyətinə bir daha diqqət çəkib. O zaman təbii ki, Konqres üzvlərinin Azərbaycandan, Cənubi Qafqazda baş verənlərdən xəbəri yox idi. Onlar erməni lobbi qruplarının təsiri altına düşüb və qurban Azərbaycanı işğalçı kimi təqdim edirdilər. Beləliklə, bu düzəliş bizi həmin o illərdə çox ehtiyac duyduğumuz birbaşa Amerika yardımından məhrum etmişdir. O vaxt Azərbaycan qaçqınların sayı çox, iqtisadiyyatı isə bərbad vəziyyətdə olan kasıb ölkə idi. Nəticədə, biz sanksiyalar altında olan yeganə keçmiş Sovet İttifaqı respublikası idik. Sonra 2001-ci ildə bu sanksiyalar dayandırıldı, çünki ABŞ Hökumətinin Əfqanıstanda Azərbaycanın köməyinə ehtiyacı var idi. Biz isə çox vacib nəqliyyat yollarını, "Şimal Paylayıcı Şəbəkə" adlanan əlaqəni təmin etdik. Bu, təkcə hava uçuşları deyil, həm də quru və dəniz nəqliyyatını əhatə edirdi. Sonra hər il Amerika prezidentləri bu düzəlişin qüvvəsini dayandırırdılar, 2023-cü ilə qədər. Dayandırılmaması bizim üçün böyük şok oldu, çünki Bayden administrasiyası bizə ən yaxşı naşma gözləmirdik. Əfqanıstanda bizə ehtiyac olmadığına görə Bayden administrasiyası bütün dünyanın gözü qarşısında Əfqanıstandan qaçdığı dövrdə bunu əl atdı. Bundan sonra bizə qarşı sanksiyalar yenidən qüvvəyə mindi. Bu, yəqin ki, Azərbaycana mənfi münasibətin və nankorluğun zirvəsi idi. Əslində, bu, Bayden administrasiyası ilə onların hakimiyyətinin sonuna qədər düzəlməyən əlaqələrimizin ciddi şəkildə pisləşməsinə səbəb oldu.

İndi Azərbaycan güclü dövlətdir. İqtisadiyyatını inkişaf etdirib, ölkəmizin beynəlxalq maliyyə qurumlarının dəstəyinə heç bir ehtiyacı yoxdur, öz problemlərimizi özümüz həll edirik. Belə bir vəziyyətdə 907-ci düzəlişin dondurulmasına və "Azadlığa dəstək aktı" çərçivəsində respublikamıza ABŞ-dan yardım ünvanlanmasına bir o qədər də böyük ehtiyac yoxdur. Prezident İlham Əliyev səfər çərçivəsində 907-ci düzəlişin dayandırılmasının rəmzi məna daşıdığını bildirib. "Əlbəttə ki, "Azadlığa dəstək aktı"na edilən bu ədalətsiz 907-ci düzəlişdən mənim iştirakımla oval ofisdə imtina çox rəmzi məna daşıyır. Prezident Tramp bunu başqa formada da edə bilərdi. O, bunu daha sonra da imzalaya bilərdi. Amma bunu hələ 1992-ci ilin oktyabrından bəri Konqres tərəfindən haqsız olaraq sanksiyaya məruz qalan Azərbaycanın Prezidentinin qarşısında etmək qərarına gəldi", - deyə dövlətimizin başçısı vurğulayıb.

*Mübariz ABDULLAYEV*

# Cənubi Qafqaz böyük dəyişikliklər ərəfəsində...

## Ermənistanın növbəti ev tapşırığı

**Bu günlərdə Prezident İlham Əliyevin Vaşinqtona işgüzar səfəri çərçivəsində Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən Birgə Bəyannamənin imzalanması Cənubi Qafqaz regionuna nəhayət, çoxdan gözlənilən sülh gələcəyinə böyük ümidlər yaradıb. Bununla belə, tənzimləmə prosesinin məntiqi sonluğa çatması, yekun sülh sazişinin imzalanması üçün Ermənistan bir sıra zəruri addımlar atmalıdır. Prezident İlham Əliyev avqustun 8-də Vaşinqtonda Azərbaycanın media nümayəndələrinə müsahibəsində qarşı tərəfin öhdəliklərinə diqqət çəkərək bildirib: "Təbii ki, Ermənistanın, necə deyərlər, ev tapşırıqları da var".**

### Sülh təşəbbüsünü ilk olaraq Azərbaycan irəli sürüb

Bu gün bütün dünya Azərbaycanla Ermənistan arasında yekun sülh sənədinin mətninin paraflanmasını alqışlayır. Həqiqətən də, üç onillik ərzində Ermənistanın işğalçılıq siyasətinə görə müharibə riskləri və təhdidlərlə üz üzə qalan Cənubi Qafqaz coğrafiyası böyük dəyişikliklər ərəfəsindədir. İndi Cənubi Qafqaz sülhə, əməkdaşlığa, təhlükəsizliyə heç vaxt olmadığı qədər yaxındır.

Sülh prosesində indiki nəticələrin əldə olunmasına aparan yol isə kifayət qədər uzun olub. Bu yolda bir sıra mərhələləri keçmək, maneələri dəf etmək lazım gəlib ki, burada da Azərbaycanın müstəsna rolu xüsusi olaraq vurğulanmalıdır. Əvvəla, regionda sülh üçün fürsətləri Azərbaycanın şanlı Zəfəri açıb. Ölkəmizin 44 günlük müharibənin nəticələrinə uyğun olaraq işğalçı dövləti kapitulyasiyaya uğratması, ərazi bütövlüyünü hərbi-siyasi yolla təmin etməsi ilə regionda yeni reallıqlar yarandı. Artıq tarixi ədalət və beynəlxalq hüquq təmin edilmişdi, çoxillik münaqişənin əsas səbəbi aradan qalxmışdı.

Dövlətimizin başçısının bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi başa çatanda Ermənistan-Azərbaycan gələcək əlaqələri və təmasları sahəsində bir boşluq, bir vakuum yaranmışdı. O vaxt hələ fəaliyyət göstərmək istəyən ATƏT-in Minsk qrupu da demək olar ki, iflic vəziyyətinə düşmüşdü. Onlar bilmirdilər ki, nə etmək lazımdır. Çünki Azərbaycan bütün məsələləri beynəlxalq hüquq çərçivəsində özü həll etmişdi. Belə bir vəziyyətdə qalib Azərbaycan yenə də liderlik nümunəsi göstərməklə gələcək baxışlarını ortaya qoydu. Respublikamız o mövqedən çıxış edirdi ki, müharibədən sonra yaranan boşluq çox davam edə bilməz. Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalanmalı idi. Bunun təşəbbüskarı da məhz Azərbaycan olub. "Biz o təşəbbüsü irəli sürəndən sonra yenə də heç yerdən cavab gəlmədi. Onda biz məlum əsas beş prinsipi ortaya qoyduq və bunun üzərində sülh sazişinin mətnini də biz hazırlamışdıq", - deyə dövlətimizin başçısı vurğulayıb.

Qalib Azərbaycanın qarşı tərəfə göndərdiyi 5 bənddən ibarət sülh paketi beynəlxalq norma və prinsiplərə istinad olunmaqla hazırlanmışdı. Burada Azərbaycan qalib dövlət olaraq hansısa bir imtiyazlardan çıxış etməmişdi ki, bu da ölkəmizin sülh istəyində nə qədər səmimi olduğunu təsdiqləyir. Bundan sonra tərəflər arasında danışıqlar prosesinə start verilib. "Danışıqlar prosesi o qədər də hamar getmirdi. Onun da əsas səbəbi ondan ibarət idi ki, o vaxt Ermənistan tərəfi sülh sazişinə Qarabağla bağlı müddəanı daxil etdirmək istəyirdi. Halbuki bu, heç bir məntiqə sığmayan, heç bir hüquqi və siyasi əsası olmayan məsələdir. Biz Ermənistan tərəfinə izah etməyə çalışırdıq ki, bu, bizim daxili məsələmizdir və dövlətlərarası sazişə hər hansı bir ölkənin daxili məsələsi daxil oluna bilməz. Ancaq buna baxmayaraq, Ermənistan təkidlə öz mövqeyindən geri çəkilmək istəmirdi", - deyə Prezident İlham Əliyev bildirib.

Bundan sonra Avropa İttifaqı Şurasının Prezidentinin təşəbbüsü ilə Brüssel görüşləri keçirilib. Ancaq yenə də əsas fundamental məsələ imkan vermirdi ki, tərəflər bu məsələdə razılığa gəlsinlər. Dövlətimizin başçısı xatırladıb ki, yalnız 2023-cü ilin antiterror əməliyyatından sonra Ermənistan artıq reallıqlarla barışmalı oldu. Ondan sonra demək olar ki, fəal danışıqlar prosesi başlamışdır. Artıq neçə aydır tərəflər bəyan etmişdilər ki, sülh sazişinin bütün maddələri razılaşdırılıb. Prezident İlham Əliyev Ağ Evdə sülh sazişinin mətninin paraflanmasını Cənubi Qafqaz üçün tarixi məsələ kimi səciyyələndirib və bunun bölgəyə sülh gətirdiyinə əminliyini ifadə edib.



### Yekun sülh sazişi nə vaxt imzalanacaq?

Bir neçə ay bundan əvvəl sülh sazişinin mətni ikitərəfli qaydada razılaşdırıldıqdan sonra Ermənistan daha iki öhdəliyini yerinə yetirməli idi. Bunlardan biri ATƏT-in de-fakto mövcud olmayan Minsk qrupunun de-yure də ləğv olunmasına Ermənistanın razılıq verməsi idi. Münaqişə həllini tapdıqdan sonra Minsk qrupunun mövcudluğuna da ehtiyac qalmamışdı. Minsk qrupunun de-yure ləğvi məsələsi Vaşinqton görüşü çərçivəsində həllini tapdı.

Bundan sonra Ermənistanın etməli olduğu növbəti ev tapşırığı konstitusiya dəyişikliyinə getməkdir. Azərbaycan qalıcı sülh mövqeyindən çıxış edir. Bunun üçün isə yalnız sülh sazişini imzalamaq yetərli deyil. Qalıcı sülh üçün fundamental hüquqi baza olmalıdır. Ancaq Ermənistanın hazırkı konstitusiyası bu bazanı təmin etmir. Bu da onunla bağlıdır ki, Ermənistanın əsas qanununun preampula hissəsində açıq-aşkar respublikamıza qarşı ərazi iddialarının yer aldığı müddəalar var. Belə bir vəziyyətdə hansı məntiqlə qalıcı sülhdən danışmaq mümkündür? Buna görə də sülh təşəbbüsünün müəllifi olan Azərbaycan Ermənistan konstitusiyasının dəyişdirilməsini yekun sənədin imzalanması üçün əsas şərtlərdən biri kimi irəli sürüb. Ermənistan konstitusiya dəyişikliyinə getməklə sülh prosesinə nə qədər sadiq olduğunu ortaya qoyacaq. "...Bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər", - deyə dövlətimizin başçısı vurğulayıb.

*Mübariz FEYİZLİ*

# Dünya liderləri alqışlayırlar

Dünya liderləri bugünlərdə Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona baş tutan işgüzar səfərini, səfər çərçivəsində aparılan müzakirələri və imzalanan sənədləri yüksək dəyərləndirirlər. Bunu səfərdən sonra ayrı-ayrı ölkələrin dövlət və hökumət başçılarının, beynəlxalq təsisatların yüksəksəviyyəli rəsmilərinin ifadə etdikləri fikirlərdən də görmək mümkündür.

## Qardaş Türkiyə regionda sülhü və sabitliyi daim dəstəkləyir



Avqustun 9-da Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanmasının, ATƏT-in Minsk qrupunun ləğvi ilə bağlı birgə müraciətin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub.

Bu nəticələrin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edən dövlətimizin başçısı Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz əlaqənin yaradılmasına xidmət edəcək nəqliyyat bağlantısının bütün regionun çiçəklənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında normallaşma prosesində Prezident Rəcəb Tayyib Ərdoğanın və qardaş Türkiyənin oynadığı rolu yüksək qiymətləndirib və buna görə təşəkkürünü bildirib.

Prezident Rəcəb Tayyib Ərdoğan regionda sülh gündəliyinin irəli aparılmasında nümayiş etdirdiyi liderliyə görə Prezident İlham Əliyevə təbriklərini çatdırıb və qeyd edib ki, Türkiyə regionda sülhü və sabitliyi daim dəstəkləyir.

## Özbəkistan lideri dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb

Avqustun 9-da Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib.

Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub. Bundan sonra atılmalı olan addımların Ermənistanla Azərbaycan arasında yekun sülh sazişinin imzalanmasına və onun ratifikasiyasına zəmin yaradacağı qeyd edilib.



Şavkat Mirziyoyev öz növbəsində əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb, bunun bütün regionun inkişafına müsbət təsir göstərəcəyini qeyd edib.

## Azərbaycandan dost Türkmənistana zəng



Avqustun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədova zəng edib.

Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində imzalanan sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin, Azərbaycan ilə Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanmasının və ATƏT-in Minsk qrupunun ləğvinə dair birgə müraciətin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətinə toxunulub.

Türkmənistan Xalq Məsləhətinin sədri əldə edilmiş tarixi razılaşmalar münasibətilə dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb.

## Qazaxıstan liderinin böyük inamı

Avqustun 10-da Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Qazaxıstan Prezidenti Azərbaycanla Ermənistan arasında normallaşma gündəliyi ilə əlaqədar Amerika Birləşmiş Ştatlarında əldə olunmuş razılaşmalar münasibətilə dövlətimizin başçısını və Azərbaycan xalqını təbrik edib. Kasım-Jomart Tokayev bu nəticələrin tarixi əhəmiyyət daşıdığını qeyd edərək, onların regionda hərtərəfli əməkdaşlıq üçün imkan yaradacağına ümidvarlığını bildirib.



Dövlətimizin başçısı təbriklərə görə təşəkkür edərək, Amerika Birləşmiş Ştatlarında Azərbaycan ilə Ermənistan arasında ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə imzalanmış bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından əhəmiyyətini vurğulayıb. Bu xüsusda göstərdiyi dəstəyə görə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın rolunu qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz nəqliyyat bağlantısı üzrə əldə olunmuş razılaşmanın Orta Dəhlizin yükaşırma qabiliyyətinə gələcəkdə müsbət təsir göstərəcəyini də deyib.

## Ukraynadan gələn təbrik



Avqustun 10-da Ukrayna Prezidenti Volodimir Zelenski Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında Ukrayna Prezidenti dövlətimizin başçısını Amerika Birləşmiş Ştatları Prezidenti Donald Trampın dəstəyi ilə Ermənistanla Azərbaycan arasında sülh gündəliyi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə təbrik edib və bu görüşün tarixi xarakter daşıdığını vurğulayıb.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirib, Ermənistanla Azərbaycan arasında əldə olunmuş razılaşmaların, xüsusilə ABŞ Prezidentinin şahidliyi ilə iki ölkə arasında imzalanmış bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün və sabitliyin təmin olunmasına və çiçəklənməyə xidmət göstərəcəyini qeyd edib.

Telefon danışığı zamanı tərəflər Ukrayna ərazisində Azərbaycanın SOCAR şirkətinə məxsus neft anbarına və ölkəmizə aid digər obyektlərə, həmçinin Azərbaycan qazını Ukraynaya nəql edən qaz kompressor stansiyasına Rusiya tərəfindən məqsədyönlü şəkildə hava zərbələrinin endirilməsini pisləyib, bunun Azərbaycan ilə Ukrayna arasında energetika sahəsində əməkdaşlığın dayandırılmasına heç bir halda səbəb olmayacağına əminliklərini vurğulayıblar.

## Pakistan lideri razılaşmaların önəmini vurğulayıb

Avqustun 10-da Azərbaycan Prezidenti İlham Əliyev Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifə zəng edib.

Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində imzalanmış sənədlərin, xüsusilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanan bəyannamənin və digər sənədlərin regionda davamlı sülhün, sabitliyin və çiçəklənmənin təmin olunması baxımından əhəmiyyətinə toxunulub, bu nəticələrin əldə edilməsində ABŞ Prezidenti Donald Trampın xüsusi rolu qeyd olunub.



Məhəmməd Şahbaz Şərif əldə olunmuş razılaşmaların önəmini vurğulayıb və Prezident İlham Əliyevə təbriklərini çatdırıb.

## BƏƏ - nin Prezidenti nəticələrin tarixi xarakter daşıdığını qeyd edib



Avqustun 10-da Azərbaycan Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyana zəng edib.

Telefon danışığı zamanı Azərbaycan ilə BƏƏ arasında əlaqələrin dostluq və qardaşlıq xarakteri daşıdığı qeyd olunub. Dövlətimizin başçısının BƏƏ-yə sonuncu səfəri və Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan ilə görüşü məmnunluqla xatırlanıb.

Prezident İlham Əliyevin ABŞ-a səfəri çərçivəsində Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri tərəfindən ABŞ Prezidentinin şahidliyi ilə imzalanmış bəyannamənin və digər sənədlərin önəmi vurğulanıb, bütün bunların regionda davamlı sülhün, sabitliyin və çiçəklənmənin təmin olunması baxımından əhəmiyyəti qeyd edilib. Bu nəticələrin əldə edilməsində ABŞ Prezidenti Donald Trampın xüsusi rolu yüksək qiymətləndirilib.

Dövlətimizin başçısı əldə olunmuş razılaşmalarda bu ilin iyul ayında Əbu-Dabidə Azərbaycanla Ermənistan arasında keçirilmiş ikitərəfli görüşün əhəmiyyətinə toxunub və buna görə Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyana təşəkkürünü bildirib.

Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan əldə olunmuş nəticələr ilə əlaqədar dövlətimizin başçısına təbriklərini çatdırıb və bunun tarixi xarakter daşıdığını qeyd edib.

## Azərbaycanla İordaniya arasında ikitərəfli münasibətlər müzakirə olunub

Avqustun 11-də İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseyn Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib.

İordaniya Kralı Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi və əldə olunmuş tarixi nəticələr ilə əlaqədar dövlətimizin başçısına və Azərbaycan xalqına təbriklərini çatdırıb, bu razılaşmaların regionda davamlı sülhün, təhlükəsizliyin və hərtərəfli əməkdaşlığın təmin olunmasına xidmət edəcəyinə ümidvarlığını bildirib.

Dövlətimizin başçısı təbriklərə görə minnətdarlığını ifadə edərək, ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycanla Ermənistan arasında imzalanmış Birgə Bəyannamənin, həmçinin sülh və dövlətlərarası münasibətlərin yaradılmasına dair sazişin paraflanmasının və digər sənədlərin regionda sülhün təmin olunması baxımından vacibliyini vurğulayıb. Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılmasında Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edib.



## BMT-dən gecikməyən münasibət

Ümumiyyətlə, Vaşinqtonda keçirilən görüşləri imzalanan sənədləri alqışlayan ölkələrin sayı kifayət qədər çoxdur. O cümlədən Avropa İttifaqının və digər beynəlxalq təşkilatların yüksəksəviyyəli rəsmiləri iki ölkə arasında D.Trampın şahidliyi ilə imzalanan Birgə Bəyanatın tarixi əhəmiyyətini vurğulayaraq regionda davamlı sülhün təmin edilməsi üçün əlverişli şərait yarandığını bildiriblər.

O cümlədən BMT-dən də reaksiya gecikməyib. Qurumun baş katibi Antonio Quterreş ABŞ-ın vasitəçiliyi ilə Ermənistan və Azərbaycanın birgə bəyannaməni imzalamasını alqışlayıb və bunu Bakı ilə İrəvan arasında münasibətlərin normallaşması yolunda mühüm mərhələ hesab edib.

Eyni zamanda, dünyanın aparıcı media qurumları da Vaşinqtonda baş tutan görüşlər və imzalanan sənədlərlə əlaqədar manşet xəbərləri dərc edirlər. O cümlədən "The Associated Press","Reuters", "USA TODAY", "Euronews", "The Jerusalem Post" və digər nəşrlər liderlərin Vaşinqton görüşü və tarixi əhəmiyyət daşıyan razılaşmalarla bağlı analitik yazılar dərc ediblər.

***MÜBARİZ***

# Kremldə yazılan ssenari...

## Rusiyaya baha başa gələ bilər



Azərbaycan neftinin ixrac edildiyi Ukraynanın Odessa istiqamətindəki qaz kəməri sisteminin, eləcə də SOCAR-ın yanacaqdoldurma məntəqəsinin növbəti dəfə 5 "Şahed" kamikadze dronu ilə hədəfə alınaraq zərbələrə məruz qalması Kremlin Azərbaycana qarşı düşmənçiliyinin bariz nümunəsi kimi dəyərləndirilə bilər. Bu, Rusiyanın son aylarda ölkəmizə qarşı intensivləşən təzyiq siyasətinin tərkib hissəsidir.

Rusiya bu cür təxribatları son dövrlərdə təkrarlayır, Azərbaycanın Ukraynadakı mühüm inzibati məntəqələrini, biznes, enerji obyektlərini, hətta diplomatik nümayəndəliyinin yerləşdiyi əraziləri məqsədli şəkildə hərbi hücumlarla sıradan çıxarmağa çalışır. Ukraynadakı səfirliyimizin yaxınlığında raket zərbələrinin endirilməsi beynəlxalq qaydalara zidd olmaqla yanaşı, bütün siyasi etik normaları pozmaqdır. Eləcə də mülki infrastrukturların, energetika-yanacaq komplekslərinin hərbi hədəf halına gətirilməsi, SOCAR-ın inzibati ofisinin yanına raketin düşməsi və digər hallar məqsədli bir ssenarinin tərkib hissəsidir və Moskvanın dövlət aparatının sifarişlərinin təzahürüdür. Bunlar Rusiyanın məqsədyönlü şəkildə Azərbaycanın Ukraynadakı legitim fəaliyyətinə zərbə vurmaq, bu ölkədəki humanitar-iqtisadi dəstəklərini sarsıtmaq məqsədi güdür və Kreml bununla Azərbaycana acıq verməyə çalışır ki, Ukraynaya qarşı davam etdirdiyi humanitar fəlakətlərə göz yumsun. Bu, nəinki dövlət əxlaqına sığmır, eyni zamanda, insanlığa qarşı cinayətlər kimi xarakterizə oluna bilər.

Ümumiyyətlə, Rusiya Ukraynada başlatdığı hərbi münaqişədəki zərər və itkilərinin, siyasi-hərbi-iqtisadi defoltunun şiddətlənməsi fonunda daha da dövlət etikasını itirir, Ukrayna xalqının üzləşdiyi insanlıq faciəsinə biganə qalmayan, ağrı ilə qarşılayan dövlətlərə düşmən kimi yanaşır. Qardaş Ukrayna xalqına qarşı vəhşiliklər törədən Rusiyanın digər ölkələrə və xalqlara qarşı törətdikləri təəccüblü deyil. Bu acizlik və çarəsizlik əlamətini isə həmin ölkələrdən müxtəlif "qisaslarla" almağa çalışır. Qroznu hava limanı yaxınlığında təyyarəmizin vurulması, Yekaterinburqda baş vermiş hadisələr də bunu təsdiqləyir.

Rusiyanın düşdüyü rüsvayçı vəziyyət, bu dövlətin postsovet məkanında Ermənistandan sonra ikinci işğalçı dövlət olmasını açıqca nümayiş etdirir.

Kreml onun imperialist siyasətinə qarşı çıxan, regiondakı avantüralarını açıq şəkildə rədd edən dövlətlərə, o cümlədən Azərbaycana qıcıq göstərir. Rusiya bununla Azərbaycanın müstəqil xarici siyasətinə, o cümlədən regional həmrəylik dalğası yaradan enerji siyasətinə qarşı çıxaraq barışmaq istəmədiyini büruzə verir.

Ancaq Rusiya hökuməti, dövlət rəsmiləri anlamalıdır ki, bu şovinist və yırtıcı siyasət daha çox özünə zərər verir, yaxın qonşularını ondan daha da uzaqlaşdırır, strateji müttəfiqlik bəyannaməsi imzaladığı Azərbaycana qarşı bu məntiqsiz yanaşma, münasibətləri korlayır. Ona görə də, Rusiya bölgədə adi qonşuluq münasibətlərini də itirmək və bütün region ölkələrini özündən iyrəndirmək istəmirsə, açıq məntiqlə düşünməlidir.

Azərbaycan dövlətinin yürütdüyü balanslaşdırılmış xarici siyasət kursu hər bir ölkəyə qarşı deyil, yalnız milli maraqların həyata keçirilməsinə əsaslanır. Bu gün bölgədə yeni realıqlar yaradan ölkəmiz daha güclüdür, haqlıdır, qalibdir. Ərazi ölçüsündən asılı olmayaraq heç bir dövlət Azərbaycanla təhdid dilində danışa bilməz, bunu Rusiyadakı hakim dairələr anlasalar, öz xeyirlərinə olar.

# "Gender bərabərliyi", yoxsa "gender münasibətləri"?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti üzrə hazırlanmışdır**

Bütün dünyada gender bərabərliyi probleminin həlli BMT-nin Minilliyin İnkişaf Məqsədlərindən biridir. Demokratik və sivil cəmiyyətin göstəricisi sayılan gender bərabərliyinin təmini üçün Azərbaycanda həm dövlət, həm də qeyri-hökumət təşkilatları tərəfindən məqsədəuyğun siyasət yürüdülür. Sağlam ailə mühitinin formalaşması üçün ilk növbədə, cəmiyyətdə qadın və kişilərin hüquqi, sosial, mənəvi baxımdan bərabər olması şərtdir. Bu bərabərlik leksikonumuza "gender bərabərliyi" şəklində daxil olub. Cəmiyyətin diqqət mərkəzindəki məsələlərdən olan bu anlayış özündə ictimai, siyasi, mədəni və digər sahələrdə kişi-qadın bərabərliyini ehtiva edir.

Dünyada və Azərbaycanda qadın hüquqlarının təmin edilməsində böyük irəliləyişlər əldə olunub və qadın müdafiəsi istiqamətində ardıcıl addımlar atılır, intensiv işlər həyata keçirilir. Dünya miqyasında ilk dəfə qadınlar və onun problemləri haqqında məsələ 1975-ci ildə qaldırıldı və həmin il "qadın ili" elan olundu. Elə həmin il Mexikoda Qadınların Ümumdünya konfransı çağrıldı. II Ümumdünya qadın konfransı 1980-ci ildə Danimarkada, III - 1985-ci ildə Nayrobidə, IV isə Pekində 1995-ci ildə keçirildi. Hər dörd konfransın məramı "Bərabərlik, İnkişaf və sülh" idi. Ancaq qadın və kişi hüquqlarının bərabərliyi, gender məsələləri ön plana çəkilirdi.

Ümummilli Lider Heydər Əliyev ikinci dəfə hakimiyyətə gəldikdən (1993-cü il) sonra ölkəmizdə qadın problemlərinə daha böyük diqqət yetirildi. Onların hüquq bərabərliyi, cəmiyyətdəki aparıcı rolu 1995-ci ildə qəbul olunmuş Konstitusiyamızda da öz əksini tapdı. Həmin il Pekində keçirilən IV Ümumdünya qadın Konfransında iştirak etmək üçün Dövlət Milli Şurası yaradıldı. 1995-ci il Azərbaycan qadınları üçün əlamətdar olub. Çünki Ümummilli liderin fərmanı ilə Azərbaycan "Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğvi" Konvensiyasına qoşuldu.

### Maarifləndirməyə ehtiyac var

1998-ci ildə Heydər Əliyevin sərəncamı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsinin (indiki Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi) yaradılması,Komitə qadın hüquqlarının müdafiəsi istiqamətində əhəmiyyətli işlər görmüş, tədbirlər həyata keçirmişdir.Onlardan: BMT-nin Əhali Fondunun Dövlət Komitəsi ilə birgə hazırladığı "Azərbaycanda qadına qarşı zorakılığın iqtisadi nəticələri" adlı Tədqiqat, BMTİP, BMT Əhali Fondu və Komitənin birgə layihəsi əsasında "Özəl sekorda kişilər və qadınlar: imkan və çətinliklər" mövzusunda Təhlil (2018-ci il) və s. kimi misal gətirmək olar. "Azərbaycanda qadınların rolunun artırılmasına dair tədbirlər haqqında" sərəncamları, 2000-ci ildə "Dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" fərman Heydər Əliyevin Azərbaycanda gender bərabərliyinin təminatçısı olduğunu təsdiq edir. 2006-cı ildə ölkəmizdə qəbul edilən "Gender bərabərliyinin təminatı haqqında" qanuna görə, Azərbaycan cinsi mənsubiyyətə görə hər cür ayrı-seçkiliyi qadağan olunub.



Azərbaycanlı qadınlar XX əsrdə qısa müddət ərzində yüzilliklərə bərabər inkişaf yolu keçməyə nail olublar. Onların cəmiyyətdə, ictimai həyatda, ailədəki mövqeyində köklü dəyişikliklər baş verib. Azərbaycan müstəqillik qazandıqdan, ölkədə sabitlik bərpa edildikdən sonra qadınların siyasi, eləcə də ictimai müstəvidə rolu xeyli dərəcədə artıb. Konstitusiyamız qarşısında qadınlar və kişilər eyni hüquqlara malikdirlər.Birmənalı şəkildə demək olar ki, Azərbaycanda gender bərabərliyi dövlət tərəfindən ciddi şəkildə təmin olunur.

Qadın hüquqlarının müdafiəsi, onlar üçün yaradılan bütün imkanların genişləndirilməsi Prezident İlham Əliyevin dövlət siyasətində müəyyən etdiyi prioritet istiqamətlərdəndir.

2006-cı ildə qadınlarla bağlı işlərin daha mütəşəkkil və ardıcıl şəkildə aparılması, ictimai həyatın bütün sahələrində bərabər hüquqların təmin olunması sahəsində hüquqi bazanın təkmilləşdirilməsi üçün "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında", 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunub. Bu qanunların qəbul edilməsi insanların təfəkküründə yeni düşüncə tərzinin formalaşmasına təkan verərək bir çox stereotiplərin qırılmasına səbəb olub. Gender bərabərliyinin təmin olunmasında görülən işlər beynəlxalq qurumlar tərəfindən də diqqətdə saxlanılır.

Son illər cəmiyyətimizdə genderlə bağlı ciddi uğurlar əldə olunub. Artıq bu uğurları beynəlxalq qurumların hazırladıqları hesabatlarda da görmək mümkündür. Lakin ailə münasibətlərini qanunla tənzimləmək mümkün deyil. Ailənin görünən və görünməyən tərəfləri ilə yanaşı, daxili, yalnız özünəməxsus qayda-qanunları mövcuddur. Bu gün ölkəmizdə gender bərabərliyinin təminatında qanunla yanaşı, insanların maarifləndirməyə ehtiyacı var. Bu sahəyə münsibətdə sosioloqların fikirləri maraqlıdır. Məsələn, sosioloq Əhməd Qəşəmoğlunun fikrincə, ölkəmizdə gender bərbərliyi ilə bağlı aydın, lazımlı bir fikir yoxdur: ""Azərbaycanda gender bərabərliyi dünyanın hər yerində olduğu kimidir" demək bizə lazım deyil. Bizə əsas lazım olan budur ki, ailəmizdə daha ahəngdar münasibət olsun. Gender bərabərliyini müqayisə etdiyimiz ölkələrin təcrübəsindən necə istifadə edək ki, ailələrimizdə daim ahəngdar münasibət qorunsun, sabah ailələr dağılmasın, ailə zəminində zorakılıq, qətl hadisələri, boşanmaya gətirib çıxarmasın. Deməli, biz məqsədi önə çəkməliyik, vasitə isə ikinci sırada olmalıdır. "Gender bərabərliyi" yox, "gender münasibətləri" desək, daha dəqiq olar. Bu münasibətlər ayrı-ayrı bölgələrimizdə fərqli ola bilər. Hətta Bakının kəndlərində, rayonlarında da. Deməli, biz bu sahəni yaxşı öyrənməliyik. Müasir metodlar var. Sorğular da keçirmək, söhbət aparmaq olar və s".

***Yeganə***

# Qazaxıstan Prezidenti Çinin təşəbbüsünü dəstəkləyib

100 ЖЫЛ
KAZINFORM
ХАЛЫҚАРАЛЫҚ АҚПАРАТ АГЕНТТІГІ
1920 ЖЫЛЫ ҚҰРЫЛДЫ

Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Çinin qlobal süni intellekt (AI) əməkdaşlıq təşkilatının yaradılması təşəbbüsünü dəstəkləməyi təklif edib.

AZƏRTAC "Kazinform" agentliyinə istinadla xəbər verir ki, bu təkliflə avqustun 11-də Qazaxıstan Prezidenti hökumət üzvləri və mərkəzi dövlət qurumlarının rəhbərləri ilə görüşündə çıxış edib. O qeyd edib ki, Çin Xalq Respublikası süni intellekt idarəetməsinə çoxtərəfli yanaşmanı təşviq etmək, rəqəmsal boşluğu azaltmaq, etika və süni intellektin davamlı tətbiqini inkişaf etdirmək üçün qlobal AI əməkdaşlıq təşkilatının yaradılması təşəbbüsü ilə çıxış edib. "Hesab edirəm ki, Çinin belə bir təşkilat yaratmaq təşəbbüsü dəstəklənməlidir və biz də hazırlıq işlərinə qoşulmalıyıq. Bu, ölkəmizin maraqlarına uyğundur", -deyə dövlət başçısı bildirib.

Çin hökuməti qlobal süni intellekt (AI) əməkdaşlıq təşkilatının yaradılmasını təklif edib və onun baş qərargahının Şanxayda yaradılmasını ilkin olaraq nəzərdən keçirir. Mənbələr bildiriblər ki, Çin təşkilatın ölkələr üçün innovasiya sahəsində əməkdaşlığı dərinləşdirmək, süni intellektin qeyri-məhdud potensialını tam üzə çıxarmaq üçün praqmatik əməkdaşlığı təşviq etmək, ümumi inkişaf və rifaha nail olmaq üçün platforma rolunu oynayacağına ümid edir.

Kasım-Jomart Tokayev bundan əvvəl bildirmişdi ki, Qazaxıstan növbəti beş il ərzində rəqəmsal dövlətə çevrilməlidir. Qazaxıstan Prezidenti bütün dövlət qurumlarının rəqəmsal rejimdə fəaliyyətinin vacibliyini qeyd edib və vurğulayıb ki, ölkə parlamenti tezliklə süni intellekt haqqında qanun qəbul etməlidir.

# BAEA nümayəndə heyətinin Tehrana səfəri başlayır



İranın xarici işlər naziri bazar günü bildirib ki, Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) direktor müavini bazar ertəsi Tehrana səfər edəcək.

AZƏRTAC xarici mediaya istinadla xəbər verir ki, İranın xarici işlər naziri Abbas Araqçi Nazirlər Kabinetinin iclasından sonra IRNA agentliyinə müsahibəsində deyib: "Baş direktor Rafael Qrossinin müavini avqustun 11-də Tehrana gələcək, halbuki bizim əvvəlki kimi hər hansı bir nüvə obyektinə səfər etmək planımız yoxdur və ikitərəfli əməkdaşlığımız başlamayacaq. Əməkdaşlıq çərçivəsini müəyyən etmək üçün bazar ertəsi BAEA ilə danışıqlar aparılacaq". O, həmçinin vurğulayıb ki, Tehranın bu sahədə Avropa ölkələri ilə təmasları davam edir. Nazirin sözlərinə görə, "avropalılar əvvəlki öhdəlikləri gündəmə gətirirlər, amma indi onlar aktual deyil və 2015-ci ildə imzalanmış saziş də öz qüvvəsini itirib".

Bu il iyunun 25-də İran parlamenti BAEA-nı İsrail və ABŞ-la birgə Tehrana qarşı qərəzli münasibətdə ittiham edərək BMT-nin nüvə proqramı ilə əməkdaşlığı dayandıran qanun qəbul edib.

İranla 2015-ci il nüvə sazişini imzalayan avropalı ölkələr bildiriblər ki, Tehranın nüvə proqramı ilə bağlı nüvə danışıqlarına qayıtmayacağı təqdirdə BMT sanksiyalarının yenidən tətbiqi mexanizmi işə düşə bilər.

# Aİ Rusiyanın dondurulmuş aktivlərindən Ukraynaya 1,6 milyard avro köçürüb



Rusiya Mərkəzi Bankının dondurulmuş aktivlərindən əldə edilən 1,6 milyard avro məbləğində üçüncü tranş Ukraynanın dəstəklənməsinə yönəldilib.

Bu barədə "Report"un Avropa bürosu Avropa Komissiyasına (AK) istinadən məlumat verir.

"Aktivlər Rusiyanın Ukraynaya qarşı davam edən müharibəsinə cavab olaraq Aİ-nin tətbiq etdiyi sanksiyalar çərçivəsində dondurulub", - məlumatda bildirilib.

Brüsseldə qeyd ediblər ki, ilk iki tranşın vəsaitlərinin 90 faizi Avropa Sülh Fondu (EPF), 10 faizi isə Ukrayna Fondu vasitəsilə vasitəsilə Ukraynanın dəstəklənməsinə yönəldilib.

Üçüncü tranşın 95 faizi Ukrayna ilə Kredit Əməkdaşlığı Mexanizmi (ULCM), 5 faizi isə EPF vasitəsilə Ukraynanın dəstəklənməsi üçün istifadə ediləcək.

# Alyaska sülhün qapısı olacaqmı?

**Avqustun 15 - də ABŞ-ın Alyaska ştatında ABŞ və Rusiya prezidentləri Donald Tramp ilə Vladimir Putin arasında ikitərəfli görüşün keçirilməsi gözlənilir. Belə ki, Tramp "Truth" sosial şəbəkəsindəki səhifəsində qeyd edib ki, onunla Putin arasında yaxın günlərdə görüşün keçirilməsinə dair razılıq əldə olunub. ABŞ mediası da bu məlumatı təsdiqləyib. Lakin Rusiya tərəfindən hələ ki, bu barədə dəqiq məlumat verilməyib. Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov bu görüşün keçirilməsi üçün gələn həftənin nəzərdən keçirildiyini, lakin hazırlığın dəqiq vaxtının hələ müəyyən edilmədiyini açıqlayıb. Onun sözlərinə görə, tərəflər görüşün yeri barədə də razılığa gəliblər və bu barədə daha sonra məlumat veriləcək. Bundan əlavə, Uşakov Vladimir Putin, Donald Tramp və Volodimir Zelenski arasında ehtimal edilən üçtərəfli görüşlə bağlı məlumatları şərh edərək bildirib ki, ABŞ nümayəndəsi Uitkoffun səsləndirdiyi bu təşəbbüs Moskva tərəfindən şərh edilməyib.**

## ABŞ görüş məsələsində ciddidir



Alyaska ştatının qubernatoru Mayk Danlivi "X" sosial şəbəkəsində bildirib ki, Alyaska ABŞ Prezidenti Donald Tramp və Rusiya Prezidenti Vladimir Putin arasında görüş keçirməyə hazırdır. Qubernator vurğulayıb ki, Alyaskada qlobal əhəmiyyətli müzakirələrin aparılması məntiqə uyğundur. "Əsrlər boyu Alyaska ölkələr arasında körpü rolunu oynayıb və bu gün biz dünyanın ən mühüm regionlarından birində diplomatiya, ticarət və təhlükəsizlik üçün qapı olaraq qalırıq", - deyə M.Danlivi yazıb. ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vens isə öz sosial şəbəkə hesabında qeyd edib ki, ABŞ-ın Ukraynada münaqişənin sülh yolu ilə həll olunmasında mövqeyi qətidir: "Biz Ukraynadakı müharibəni maliyyələşdirməkdən yorulmuşuq və sülh yolu ilə nizamlanmasına çalışırıq. Artıq Amerika vergi ödəyiciləri bu müharibəni maliyyələşdirməkdən bezib. Buna görə də biz Ukraynaya hərbi yardım etməyəcəyik. Lakin əgər Avropa ödəniş edib Ukrayna üçün silah almaq istəyirsə biz buna qarşı deyilik". Avqustun 8 - də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan Baş naziri Nikol Paşinyanla birgə görüşündə Trampın Putin və Zelenski ilə görüşməyə hazır olması barədə bəyanatı da xüsusi diqqət çəkir. "Mən çox yaxında Putinlə görüşəcəm. Bu görüş yeri çox populyar olacaq. Məncə həm Putin, həm də Zelenski sülh istəyir. Biz sülh üçün sonuncu şansdan istifadə etmək istəyirik," - deyə Tramp vurğulayıb.

## Moskva bu görüşə razıdır

Məsələ ilə bağlı Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları mərkəzinin rəhbəri Samir Hümbətov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Alyaskada Tramp-Putin görüşünün baş tutması ehtimal olunur. "Hesab edirəm ki, belə bir görüşün keçirilməsi Moskvaya sərf edir. Çünki hazırda Rusiyanın özündə çox ağır iqtisadi vəziyyət hökm sürür. Moskva bu vəziyyətdən çıxmaq istəyir. Təbii ki, bu da ABŞ-la qarşılıqlı razılaşmalardan asılıdır. Ola bilər ki, Tramp öz nümayəndəsi Stiv Uitkoff vasitəsilə Putinə mesaj göndərib ki, əgər Moskva Ukraynada müharibəni dayandırarsa və atəşkəsə razı olarsa, o, Rusiya üzərində beynəlxalq təcridi və ağır sanksiyaları aradan qaldıracaq. Bu baxımdan Moskvanın prosesi uzatması inandırıcı görünmür. Proses uzandıqca Rusiya Ukraynada daha çox itki verir və maliyyə resursları tükənir. Görünən budur ki, Moskva Alyaskadakı görüşə razı olacaq. O ki qaldı bu görüşdə hansı məsələlərin müzakirə olunacağına, böyük ehtimalla, Ukraynada ərazilərin güzəşti ilə bağlı məsələ əsas müzakirə predmeti olacaq. Sözsüz ki, digər məsələlərə də toxunulacaq,"- deyə S.Hümbətov vurğulayıb.



## Nəticə nə olacaq?

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin siyasi eksperti Sultan Zahidov qəzetimizə şərhində bildirib ki, Alyaska görüşündə fundamental nəticənin əldə olunacağı real görünmür. "Kreml belə bir şərt irəli sürür ki, Ukraynanın dörd cənub-şərq vilayəti - Donetsk, Luqansk, Zaporojye və Xersonda rus ordusunun nəzarətində olan ərazilər Rusiyanın ərazisi kimi tanınacağı təqdirdə Sumi və Xarkovda ələ keçirilən ərazilər geri qaytarılacaq. Təbii ki, Ukrayna Moskvanın bu təklifinə müsbət cavab verməyəcək. Ukrayna Prezidenti Volodimir Zelenski dəfələrlə öz çıxışlarında bəyan edib ki, rəsmi Kiyev öz ərazisinin heç bir hissəsini Rusiyaya güzəştə getməyəcək", - deyə S.Zahidov bildirib ki, Alyaska görüşündə Zelenskinin iştirak etməsi zəruridir: "Avropa İttifaqının liderləri tələb edirlər ki, Alyaska görüşündə Zelenski də iştirak etməlidir. Amma Moskva Zelenskinin bu görüşdə iştirak etməsinə qarşıdır. Çünki Kreml Zelenskini qanuni dövlət rəhbəri hesab etmir. Aİ-nin üzv ölkələrinin və Böyük Britaniyanın bu yaxınlardakı bəyanatında qeyd olunur ki, Alyaska görüşündə Ukraynanın ərazi bütövlüyü və suverenliyi nəzərə alınmalı və ərazi güzəştinə yol verilməməlidir. Ərazi güzəşti məsələsi ABŞ və Aİ arasında narazılıq yaradan məsələlərdən biridir. ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vens Britaniyada Aİ-nin liderləri və Ukrayna rəsmiləri ilə son görüşündə bəyan edib ki, Alyaska görüşündə bəyan Rusiya, nə də ABŞ tam razı çıxmayacaq, amma onu da əlavə edib ki, ABŞ-ın dəstəyi ilə baş tutan danışıqlarda Rusiya və Ukrayna müəyyən məsələlərdə qarşılıqlı güzəştə getməlidir". S.Zahidov vurğulayıb ki, Alyaska görüşündə ciddi bir nəticə əldə olunmayacaq; "Birincisi, Ukraynanın bu görüşdə iştirakı sual altındadır. İkincisi isə Ukrayna Rusiyanın şərtləri ilə razı olmayacaq. Bu baxımdan Alyaska görüşündə müharibənin dayanması və atəşkəsin elan olunmasına dair heç bir razılaşma əldə olunmayacaq".

***Yunis ABDULLAYEV***

# Makrondan Fransanın yumşaq güc siyasətinə BÖYÜK ZƏRBƏ

Son zamanlar Fransa-Əlcəzair münasibətlərində gərginlik daha da artıb. Belə ki, diplomatik gərginlik fonunda rəsmi Paris Əlcəzair vətəndaşlarına qarşı viza məhdudiyyətlərini ciddi şəkildə sərtləşdirib. Makron hökumətinin qərarına əsasən, Əlcəzair vətəndaşlarına uzunmüddətli vizaların verilməsi dayandırılır və onların Fransada qalma müddəti qısaldılır. Fransaya səfər etmək istəyən və ya bu ölkədə yaşayan Əlcəzair vətəndaşları üçün digər qadağalar da tətbiq edilib. Qeyd edək ki, Fransa Prezidenti Emmanuel Makron avqustun 6-da Fransanın Baş naziri Fransua Bayruya yazdığı məktubda Əlcəzairə qarşı daha sərt tədbirlərin görülməsinin zəruriliyini vurğulayıb. O, iddia edib ki, Əlcəzair rəsmiləri münasibətlərin normallaşdırılması üzrə müraciətlərə cavab verməyib və Fransanın daha sərt addımlar atmaqdan başqa çarəsi qalmayıb. Makron əlavə edib ki, Əlcəzairin diplomatik pasport sahiblərinə viza güzəştinin verilməsinə dair 2013-cü ildə imzalanmış saziş ləğv edilir və o, bu barədə qarşı tərəfin müvafiq orqanlarına məlumat verməyi Baş nazirə tapşırıb.

## Analitiklərdən xəbərdarlıq - Makron düzgün siyasət yürütmür

Makron hakimiyyətinin Əlcəzair ilə münasibətlərdə son addımları bir çox fransalı ekspertlər tərəfindən birmənalı qarşılanmır - onlar hesab edirlər ki, viza məsələsindən diplomatik təzyiq vasitəsi kimi istifadə etmək Fransa üçün mənfi nəticələrə səbəb olacaq. Onların fikrincə, bu, həm Fransa və Əlcəzair xalqları arasında mədəni əlaqələri zəiflədəcək, həm də Əlcəzairdə Fransa mədəniyyətinin təbliğatına zərbə vuracaq və fransız dilindən davamlı istifadə etmək imkanlarını məhdudlaşdıracaq. Ekspertlər qeyd edirlər ki, Fransız dili Əlcəzairdə milyonlarla insanın təhsil, iş və gündəlik həyatında əsas rol oynayır - bu dili seçən gənclər təkcə keçmişin yadigarı olaraq deyil, həm də mədəni yaxınlıq səbəbindən onu öyrənirlər. Ekspertlərin fikirləri onu deməyə əsas verir ki, Makron hökumətinin vizanın sərtləşdirilməsi ilə bağlı qərarı nəinki iki xalq arasında çoxəsrlik mədəni əlaqələrin üzərindən xətt çəkir, hətta Fransanın Afrikada ənənəvi yumşaq güc siyasətinə çox böyük zərbə vurur. Fransalı ekspertlər, həmçinin təəssüflənirlər ki, Fransa kimi iqtisadi gücə sahib bir ölkə keçmiş müstəmləkəsinə qarşı kiçik və dar çərçivəli viza siyasətini bir təzyiq vasitəsinə çevirir - Makron hakimiyyəti bununla Fransanı regionda və Afrika ölkələri qarşısında zəif və qeyri-konstruktiv bir aktor kimi təqdim edir. Qeyd edək ki, Əlcəzair dünyada ən çox fransızdilli əhalinin olduğu dördüncü ölkədir. Fransa universitetlərində təhsil alan, bu ölkənin elmi mərkəzlərində tədqiqatçı kimi fəaliyyət göstərən və bu ölkədə sahibkarlıqla məşğul olan Əlcəzair vətəndaşlarının sayı kifayət qədərdir. Sözsüz ki, viza məhdudiyyətləri ilə bağlı qərarın həyata keçəcəyi təqdirdə Əlcəzair vətəndaşları əvvəlki dövlərdə olduğu kimi iş, təhsil və biznes hüquqlarından istifadə edə bilməyəcəklər. Bu, Fransa üçün mənəvi və strateji bir itki deməkdir. Bu qərar Əlcəzairdə antifransız hisslərin dərinləşməsinə, xüsusilə də gənclərin fransız dilindən uzaqlaşıb ingilis, alman, ispan, hətta Çin dilinə yönəlməsinə yol açacaq.

## Adevkat cavab

Əlcəzair rəsmi Parisin addımlarına cavab qismində adekvat qərar qəbul edib. Belə ki, artıq diplomatik pasportu olan Fransa vətəndaşlarına da viza rejimi tətbiq olunacaq. Əlcəzair Xarici İşlər Nazirliyinin bəyanatında qeyd olunur ki, rəsmi Əlcəzair Fransanın dövlət başçısı Emmanuel Makronun əlcəzairlilərə qarşı sərt addımlarını və onların viza güzəştlərinin ləğv edilməsi ilə bağlı qərarını qəbuledilməz hesab edir.

Xatırladaq ki, aprelin 14-də Əlcəzair Fransanın 12 diplomatını ölkədən çıxarıb.

## Əlcəzairlilərə qarşı dözümsüzlük...

Avqustun 4-də Parisin Sen-Sen-Deni departamentində yerləşən "La Bergere" parkında əlcəzairli inqilabçı və feminist Danyel Camila Amran-Minnin adını daşıyan bina yandırılıb. Hadisə Əlcəzairin müstəqillik günündə keçirilən rəsmi mərasimdən sonra baş verib. Həmkarlar ittifaqı təşkilatları bu cinayətdə sağçı ekstremist qrupların məsuliyyət daşıdığını bildiriblər. Qeyd edək ki, bir neçə ay bundan əvvəl binaya Danyel Camila Amran-Minnin adının verilməsi Fransanın müstəmləkəçi keçmişinə nostalji ilə yanaşan ifrat sağçı çevrələrdə sərt tənqidə səbəb olub. Həmin binaya tezliklə irqçi şüarlar yazılıb, ardınca avqustun 4-də gecə yandırılıb. "Liberation" qəzetinə görə, yanğın binanın ön hissəsində, Amran-Minnin adının yazıldığı və əvvəllər qara boya ilə qaralanmış hissədə başlayıb. Ümumi Əmək Konfederasiyası (CGT) və "Union Syndicale Solidaires" kimi böyük həmkarlar ittifaqı təşkilatları bəyanat yayaraq qeyd ediblər ki, son hadisə ifadə azadlığını və insan haqlarını təhdid edən cinayət aktıdır. "Bu ev bir aydır ki, Əlcəzair Milli Azadlıq Cəbhəsinin (FLN) döyüşçüsü və feminist Amran-Minnin adını daşıyır və həmin gündən bəri Fransa müstəmləkəçiliyinin nostalgiyasını yaşadan qrupların hədəfinə çevrilib", - deyə bəyanatda bildirilir. Sözügedən təşkilatlar qeyd edirlər ki, bu hücum təkcə cinayət aktı deyil, əksinə, artmaqda olan irqçilik və islamofobiyanın bir hissəsidir. "Bu ağır hadisələr təəccüblü deyil. Çünki cəmiyyətdə irqçi və islamofob fikirlər artıq açıq şəkildə ifadə edilir və bu da nifrət cinayətlərinə zəmin yaradır", - deyə bəyanatda vurğulanıb. Bununla yanaşı, həmkarlar ittifaqları Fransada irqçilik və islamifob hallarının kəskin sürətdə artmasında aidiyyatı dövlət orqanlarını günahlandırıblar - onlar həmin orqanların bilərəkdən bu cür halların baş verməsinə şərait yaratdığını bildiriblər.

## Öz əli ilə öz başına zərbə...





Məsələ ilə bağlı politoloq İlyas Hüseynov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Makron öz əli ilə Fransanın yumşaq güc siyasətinin təsir imkanlarını zəiflədir.

"Fransa Əlcəzairə münasibətdə çox radikal mövqe sərgiləyir. Bu, isə doğru deyil, hətta qeyri-rasional bir siyasətdir. Anlamaq lazımdır ki, Əlcəzairin Fransa ilə mədəni cəhətdən çox yaxın bağlantıları var. Milyonlarla Əlcəzair vətəndaşı hər ilə Fransaya gedib-gəlir, bu ölkədə yaşayır və müxtəlif sahələrdə işləyirlər. Təəssüflər olsun ki, güclü siyasi və iqtisadi dayaqlara malik olan Fransa Əlcəzair ilə münasibətlərin kəskinləşməsini prioritet hesab edir. Makron öz addımları ilə iki ölkə arasında münasibətlərin gələcəyinə zərbə vurur və bu münasibətləri təhlükə altına atır. Dialoq aparmaq və konstruktiv yanaşma sərgiləmək əvəzinə çox sərt metodlara əl atmaq, təbii ki, Fransanın Afrikada yumşaq güc siyasətinə böyük zərbə vuracaq. Dil kommunikasiya və mədəni təsir vasitəsidir. Tarixən böyük güc mərkəzləri müxtəlif regionlarda öz təsir imkanlarını artırmaq üçün yerli xalqlara öz dillərini mənimsədiblər. Görünür, Fransa, əlində, olan imkanları itirmək istəyir. Vizanın sərtləşdirilməsindən təzyiq vasitəsi kimi istifadə etmək heç bir müsbət nəticəyə gətirib çıxarmayacaq və əksinə Fransa bu cür addımlarla Əlcəzair ilə xarici siyasətini fiaskoya uğradacaq," - deyə İ.Hüseynov vurğulayıb. Ekspert əlavə edib ki, Fransada müsəlmanlara və digər qeyri-fransalı millətlərə qarşı irqçilik geniş vüsət alıb: "Ümumiyyətlə, Makronun hakimiyyəti dövründə Fransada Afrika və digər dövlətlərdən olan xalqlara qarşı irqçilik daha da güclənib. Artıq bu, dözümsüzlük halına çevrilib. İndiki hakimiyyət bütün bu hallara göz yumur, xüsusilə də dəniz aşırı dövlətlərin xalqlarına qarşı repressiv siyasət yürüdür. Fransa öz əvvəlki müsbət imicini itirib. Eyni zamanda, Fransaya qarşı beynəlxalq səviyyədə mənfi münasibət günügündən güclənməkdədir. Bunun kökündə isə ayrı-seçkilik və irqçilik dayanır".

***Yunis ABDULLAYEV***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**





# İşıqlı sabahın təməli...

## İlham Əliyev: Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram

Artıq 27 ildir ki, avqustun 12-si dünyada Beynəlxalq Gənclər Günü kimi qeyd olunur. Belə bir qərar 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilən beynəlxalq konfransda qəbul olunub. Gənclərə lazımi diqqət göstərmək məqsədilə qeyd olunan bu tarix gənclərin nailiyyətlərini geniş təbliğ etmək, cəmiyyətin bütün sahələrində onların iştirakını təmin etmək üçün yaradılıb.

Ölkəmiz isə bu sahədə də bir çox ölkələri, o cümlədən beynəlxalq ictimaiyyəti qabaqlayıb. Belə ki, 1997-ci ildə ümummilli lider Heydər Əliyevin Fərmanı ilə Azərbaycanda Gənclər Günü təsis edildikdən xeyli sonra gənclərin işləri üzrə nazirlərin ümumdünya konfransının (1998-ci il avqustun 8-12-də) tövsiyəsi əsasında BMT Baş Məclisinin 1999-cu il 17 dekabr tarixli qətnaməsi ilə 12 avqust - Beynəlxalq Gənclər Günü elan edilib.

Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə uyğun davam etdirilməsi gənclərin hərtərəfli fəaliyyətinə geniş imkanlar yaradıb.

Dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin gələcək inkişafında dərin izlər buraxıb. Heydər Əliyevin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Bununla da, MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda bu əlamətdar gün təntənəli şəkildə qeyd edilməyə başlanıb.

Bu, bütün dünyaya nümunə olacaq daha bir addım idi. Gənclərin sosial, iqtisadi və sair problemlərinin həllinə yönələn, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, Dövlət proqramları bu qəbildəndir. Qanunlar, fərman, sərəncam və Dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşması, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsi, sosial problemlərinin həlli və faydalı məşğulluğunun təmin olunmasında son dərəcə mühüm rol oynayır.

Azərbaycanda gənclər siyasəti müasir dövrdə mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ümummilli Liderin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan, gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər bu sahəyə böyük diqqət və qayğının bariz nümunəsidir.

Dövlətimizin başçısının 2007-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaradıb. Bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında oxuyub.

Azərbaycanın gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin mətin iradəsi və böyük səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Bu gün respublikamızda 50-yə yaxın Olimpiya İdman Kompleksinin fəaliyyət göstərməsi, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın Olimpiya və dünya çempionatlarında uğurlu çıxışları buna əyani sübutdur. Beynəlxalq yarışlarda qələbə qazanan gənc idmançıların layiqincə qiymətləndirilməsi də onların yeni uğurlarında mühüm rol oynayır.

Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

Müasir dövrdə elmin və texnologiyanın sürətli inkişafı, postneft dövrünün başlanması Azərbaycan dövlətinin də gənclərlə bağlı zamanın tələblərinə uyğun siyasət yürütməsini zəruri edib. Dövlətimizin başçısı gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə 2015-ci il yanvarın 26-da "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Bu mühüm sənədin məqsədi Azərbaycanda gənclər siyasətinin daha səmərəli həyata keçirilməsinə nail olmaq, cəmiyyətin bütün sahələrində gənclərin fəal iştirakına şərait yaratmaq, onların yaradıcı və innovativ potensialının üzə çıxarılmasını dəstəkləmək, gənc nəslin sağlamlığını qorumaq, gənclərin təhsil və məşğulluq məsələlərinə diqqəti artırmaq, müasir informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək, ölkədə könüllülük hərəkatını inkişaf etdirməkdir.

Sosial həyatın bütün sferalarına nəzər salsaq, görərik ki, orada gənclər əksəriyyət təşkil edir.

Azərbaycanda gənclərin məşğulluğunun təmin olunmasına xüsusilə diqqət yetirilir. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində həyata keçirilən layihələr yetişməkdə olan nəslin gələcəyinin etibarlı təminatıdır. Eləcə də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə xaricdə və ölkəmizdə reallaşan layihələr Azərbaycanın uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayır.

Gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Müharibədə əsas missiyanı məhz Ali Baş Komandan İlham Əliyevin prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər.



Sentyabrın 27-də başlayan və noyabrın 10-dək davam edən Vətən müharibəsində rəşadətli Azərbaycan Ordusunun sıralarında mətanətlə vuruşan qəhrəman gənclərimiz adlarını xalqımızın ən yeni tarixinə qızıl hərflərlə yazdılar. Məhz onların rəşadəti sayəsində əldə olunan bu şanlı Zəfər sayəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi, xalqımız otuz illik həsrətdən sonra tarixi torpaqlarımıza qovuşdu.

Gənclərimiz Vətən uğrunda döyüşlərlə yanaşı, arxa cəbhədə də yüksək fəallıq göstərərək ölkəmizlə bağlı həqiqətlərin, işğalçı Ermənistanın əzəli torpaqlarımızda törətdikləri vandallıq aktlarının beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasında böyük fəallıq göstərdilər.

Tam inamla demək olar ki, ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyini daha işıqlı sabaha aparacaq. Bu yolda gənclərimizin ən böyük himayəçisi və dəstəkçisi məhz Azərbaycan Prezidenti İlham Əliyevdir. Dövlətimizin başçısının "Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram" - sözləri Azərbaycan dövlətinin gənclərə etimadının, gənclərin isə Prezidentə məhəbbətinin və dəstəyinin bariz nümunəsidir.

# Xəzər günü...



2006-cı ildən başlayaraq hər il avqustun 12-də beş Xəzəryanı dövlət - Azərbaycan, İran, Qazaxıstan, Rusiya və Türkmənistan Xəzər Dənizi Gününü qeyd edirlər. 17 il əvvəl həmin gün Xəzərin dəniz mühitinin mühafizəsi üzrə Tehran Konvensiyası qüvvəyə minib.

Bu günün əsas məqsədi diqqəti Xəzərin çirklənmədən qorunmasına, onun bioloji ehtiyatlarının mühafizəsinə, dənizdən səmərəli istifadəyə yönəltməkdir. "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında Çərçivə Konvensiyası" beş Xəzəryanı dövlət arasında təbiəti mühafizə şərtlərini və müvafiq təşkilati mexanizmi əks etdirən ilk hüquqi sazişdir. O, "çirkləndirici ödəyir" və məlumatın əldə edilməsi prinsipləri də daxil olmaqla bir sıra rəhbər prinsiplərə söykənir. Konvensiya Xəzər dənizinin ətraf mühitinin bütün növ mənbələrdən çirklənməsinin qarşısının alınmasına, həmçinin Xəzər dənizinin ətraf mühitinin mühafizəsi və bərpasına qulluq edir. Konvensiyada Xəzər dənizinin bioloji sərvətlərinin davamlı və səmərəli istifadəsinə, ətraf mühitə təsirin qiymətləndirilməsinə, ekoloji monitorinqə və elmi tədqiqatlara aid müddəalar əksini tapıb.

2018-ci il avqustun 12-də isə Qazaxıstanın Aktau şəhərində Xəzəryanı dövlətlərin dövlət başçılarının V Zirvə toplantısında Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya imzalanıb.

Son 30 il ərzində iqlim dəyişmələri Xəzər dənizinin hövzəsində özünü daha həssas göstərib. Bunun nəticəsində Xəzər dənizinin sahil boyunda yaşayan əhali ciddi iqlim dəyişmələrinin, dənizin su səviyyəsinin tərəddüdünün, sel və quraqlıqların mənfi təsirlərinə daha çox məruz qalıb. İqlim dəyişmələri səbəbindən Xəzər dənizinin səviyyəsinin aşağı düşməsi region üçün potensial təhlükəyə çevrilib. Dənizə tökülən çayların suyunun azalması yağıntıların miqdarının azalması ilə bərabər, həm də çay sularından kənd təsərrüfatının artan tələbatının ödənilməsinə yönəldilməsi ilə də izah edilir.

Xəzər dənizinin ətraf mühitinin bugünkü vəziyyəti ilə əlaqədar bütün sahilyanı dövlətlər narahatlıq keçirir. Dənizin ətraf mühitinin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə məsələləri Xəzəryanı ölkələrin milli siyasətinin prioritet istiqamətlərindəndir. Azərbaycanda da Xəzər dənizinin ətraf mühitinə mənfi təsirləri minimuma endirmək üçün tədbirlər görülür.

Okean mənşəli dünyanın ən böyük daxili su hövzəsi olan Xəzəri haqlı olaraq əsl relikt və heyrətamiz təbiət abidəsi adlandırmaq olar. Bu günədək qorunub saxlanılan ən zəngin flora və fauna aləmi bütün bəşəriyyətin mülkiyyətidir. Dənizin dərinliklərində və sahilyanı ərazilərdə Beynəlxalq Təbiəti Mühafizə İttifaqının Qırmızı Kitabına daxil edilmiş 500-dən çox bitki və 850 növ heyvan, o cümlədən nadir və endemik növlər yaşayır.

Bütövlükdə regionumuzda Xəzər böyük iqlim əmələgətirən təsirə malikdir. Eyni zamanda, Xəzər və dəniz ekosistemi iqlimin istiləşməsinə həssasdır. Qlobal temperaturun sürətlə artması son onilliklərdə özünü daha güclü göstərməkdədir. Bu, ümumilikdə azalan su ehtiyatlarından istifadənin artması fonunda dənizə tökülən çayların axınının azalmasına gətirib çıxarır. Digər tərəfdən, temperaturun artması dəniz səthindən buxarlanmanın artmasına səbəb olur. XX əsrdə səviyyənin ən aşağı göstəricisi 1977-ci ildə, yəni dəniz səviyyəsindən 29 metr aşağı qeydə alınıb. Lakin, 1995-ci ilə qədər sonrakı onilliklərdə, nisbətən qısa müddətdə səviyyə - 26,5 metr həddinə çatıb. Bu da 18 il ərzində səviyyənin 2,5 metr yüksəlməsini göstərirdi. 1995-ci ildən bu günədək 28 ildir ki, Xəzər yenidən səviyyəsinin aşağı düşməsi mərhələsindədir. Hazırda Xəzərin səviyyəsi dünya okean səviyyəsindən 28,6 metr aşağıdır. Keçən əsrin minimumundan isə bizi 40 santimetr fərq ayırır.

Xatırladaq ki, ötən il Azərbaycan tərəfinin təşəbbüsü ilə təşkil edilən beynəlxalq konfransda iqlim dəyişmələri nəticələrinə uyğunlaşmanın mümkün ssenariləri və tədbirləri müzakirə edilib.

***Sahib***

## Azercell Beynəlxalq İnformatika Olimpiadasında uğur qazanan məktəbliləri təbrik edir

Boliviyanın paytaxtı Sukre şəhərində keçirilmiş 37-ci Beynəlxalq İnformatika Olimpiadasında (IOI 2025) Azərbaycan komandası uğurla çıxış edərək ölkə tarixində ən yüksək nəticəni əldə edib.




98 ölkədən 300-dən çox məktəblinin iştirak etdiyi olimpiadada Bakı şəhəri Akademik Zərifə Əliyeva adına liseyin XI sinif şagirdi Ayxan Dəmirli gümüş medala, 157 nömrəli məktəbin X sinif şagirdi Həsən Vəliyev və Fizika, riyaziyyat və informatika təmayüllü liseyin XI sinif şagirdi Elvin İmanlı bürünc medallara layiq görülüblər. Ankara liseyinin XI sinif şagirdi Əli Əliyev isə həvəsləndirici mükafatla təltif olunub.

Olimpiada çərçivəsində iştirakçılar iki gün ərzində mürəkkəb alqoritmik tapşırıqları həll edərək analitik düşüncə, problem həll etmə və proqramlaşdırma bacarıqlarını nümayiş etdiriblər. Onların təqdim etdikləri həllər 100 ballıq qiymətləndirmə sistemi əsasında dəyərləndirilib.

Azərbaycan 1994-cü ildən etibarən Beynəlxalq İnformatika Olimpiadasında təmsil olunur. Belə ki, məktəblilər 1994-2019-cu illər ərzində ölkəyə beş medal, 2020-2025-ci illərdə isə on bir medal qazandırıblar. Cari ildə əldə edilmiş nailiyyətlər Azərbaycanın bu olimpiadadakı rekord nəticəsi olmaqla yanaşı, iki şagirdin dünya sıralamasında ilk yüzlüyə daxil olması ilə də xüsusi əhəmiyyət kəsb edir.

Qeyd edək ki, "Azercell Telekom" MMC, Elm və Təhsil Nazirliyi və Təhsil İnstitutu ilə əməkdaşlıq çərçivəsində artıq səkkiz ildir ki, məktəblilərin beynəlxalq olimpiadalara hazırlıq prosesinə dəstək verir. Bu təşəbbüs istedadlı gənclərin İT və İKT sahələrində bilik və bacarıqlarının inkişafına, eləcə də onların beynəlxalq müsabiqələrdə uğurlu çıxışlarına töhfə vermək məqsədi daşıyır.

Azercell qalib məktəbliləri təbrik edir, onlara gələcək olimpiadalarda yeni uğurlar arzulayır!

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4745**
**Sifariş: 1656**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova